06_27 IYUl-QARA.qxd 2/15/2024 10:33 PM Page 1

UNİKAL

№06 (2188) 16 fevral 2024-cü il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.az unikal-1@mail.ru



# Ermənistanın təxribatına verilən sərt cavab sonuncu şansdır



Səh.9

## Azərbaycanın Zəngəzur dəhlizi ilə bağlı B planı...

*"Bəzi Avropa İttifaqı rəsmilərinin Azərbaycan ekspansionizmi ilə bağlı iddiaları əsassızdır". "Unikal" xəbər verir ki, bunu Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyov "Brussels Signal"a müsahibəsində deyib. Rəsmi Avropa İttifaqı diplomatiyasının rəhbəri Borrelin Azərbaycana qarşı bəyanatları reallığı əks etdirmədiyini bildirib: "Mən fürsətdən istifadə edərək bu iddiaları tamamilə rədd edirəm. Azərbaycanın Ermənistana heç bir ərazi iddiası yoxdur. İcazə verin, sizi yeni terminologiyaya əməl etməyə dəvət edim, bu gün Azərbaycanın Qarabağ bölgəsi var, ona görə də Dağlıq Qarabağ köhnəlmiş və işlək olmayan bir addır". Diplomat Zəngəzur dəhlizi ilə bağlı suala belə cavab verib: "Azərbaycan tərəfi dəfələrlə açıq şəkildə bəyan edib ki...*

Səh.7

## "Azərbaycanla zarafat etmək olmaz"



*Milli Məclisin deputatı Aydın Mirzəzadə "Unikal"a müsahibə verib. O, Prezident İlham Əliyevin fevralın 14-də keçirilən andiçmə mərasimindəki nitqində yeni dövrdə hansı nailiyyətlərin olacağından, Ermənistan tərəfinin sərhəddə törətdiyi son təxribatlardan, ordu quruculuğu prosesindən və başqa məsələlərdən danışıb.*

Səh.4

## Anar Bayramovun bahalı icarəsi...



*Azərbaycanda bəzi dövlət qurumlarının "maraqlı" xərclərindən biri də icarəyə götürdükləri tikililərin icarə haqlarıdır. Belə ki, bu binaların sahiblərinin kimliyi bir çox hallarda maraq doğurur. Çünki çox zaman həmin bina sahiblərinin gerçək kimliyi ayrı-ayrı iri məmurlara və onların...*

Səh.8

## Qarabağ və Zəngəzura Böyük Qayıdış



*İşğaldan azad edilmiş torpaqlarımızda bərpa işləri sürətlə davam etdirilir. İllərdir didərgin həyatı yaşayan məcburi köçkünlər artıq öz doğma torpaqlarına geri dönürlər. Artıq işğaldan azad edilmiş ərazilərdə həyat yenidən öz axarına qayıdır. Uşaqlar ata-baba yurdlarında təhsil alır...*

Səh.11

06_27 IYUI-QARA.qxd 2/15/2024 10:34 PM Page 2



# Elnarə Abdullayeva: "Gördüm ki, bəzi insanlar həddini aşır"



***"Efirlərə çıxmayacağam deyib, tövbə etmişdim. Biri var, sənətçi biri var sənətkar. Amma heç kim sənətkar sözünü demir. Onsuz da bu sözü demirlər. Bu 50 ildə görmədim ki, yaxşı oxuyana yaxşı ifaçısan desinlər. Mən televiziyalardan inciməmişəm, sadəcə iştirak etdiyim bir tədbirdə o qədər məni "dindən, dondan" çıxardılar ki, bundan sonra bütün hər şeyə tövbə etdim".***

Bu sözləri Əməkdar artist Elnarə Abdullayeva qonaq olduğu "Rəngarəng səhər" verilişində deyib. Sənətçi bildirib ki, dost məclislərindən başqa toylara və ziyafətlərə pulsuz getməyəcək: "Həmkarlarımın toylarına getməyə hər an hazıram. Onlar çıxmaq şərti ilə havayı toylara tövbə etmişəm. Qulağınızı açın, məni yaxşı eşidin. Sən məni öz həyətimizdə oxumağa layiq bilirsən, amma sən toyuna başqa ifaçını çağırıb, rəva bilirsən. Bu necə olur? Mən səni məcbur etməmişəm ki, məni öz məclisinə çağırasan. Mən səndən pul alıram? Belə çıxır ki, səndən pul almalıyam ki, onda yaxşı olum? Baxıb gördüm ki, heç kimə "yox" deyə bilmirəm, insanam da mən... Gördüm ki, bəzi insanlar həddini aşır. Mən insanlara insaniyyət cəhətdən yanaşıram. Sonra dedim ki, bütün günah, Elnarə, sənin özündədir. Günahı heç kimdə axtarma. Olmazlar olacaq... Havayı toy olmayacaq. Mən bəzənib-düzənib çağırılan bütün toylara, məclislərə gedirdim. Bəzənmək adı gələndə isə elə bil, başıma qaynar su tökülür və orbitimdən çıxıram. Hər gün bəzənib çıxıram, nə ailəmdən, nə uşağımdan xəbərim yox, heç evdə duz qabının yerini belə bilmirəm. Mən sizə hörmət edirəmsə, bu, acizlikdən deyil. Mən sizə hörmətdən hörmət etdim. Amma mən ortaq məxrəcə gəldim ki, heç kimə hörmət etmək olmaz. Bu sözlərin ardından isə sonsuza qədər nida. Çünki insan insan olar. Üzərindən neçə ay keçdi, verilişlərdən zəng gəldi ki, gəlin, qonaq olun. Cavab verdim ki, tövbə etmişəm".

# Mətanətdən sərt sözlər: "Əvvəl oxumağı öyrənin"

***"Nə qədər olacaq bu biabırçılıq? Birinci bu oxumağı öyrənin, sonra da...".***

Bu sözləri müğənni Mətanət Əsədov deyib. İfaçı fonoqram ifa edən həmkarlarından gileylənib: "Biz illərlə nə efirə gəlmişik, nə də toya getmişik. Öyrənmişik. Özünüzü elə yekə-yekə aparırsınız ki..."

Müğənni başına gələn hadisədən də danışıb: "Günlərin birində məni Göyçaya toya dəvət etdilər. Həmin gün mənim məclisim var idi, həm də qonorar məni qane etmədi deyə, getmədim. Dedim ki, sən fonoqram oxuyana o qədər pul verirsən, mən sənin öz yerlinəm, bu cür də oxuyuram. Sən mənə necə az pul verib, aşağılayırsan?".



# Şəbnəmdən şou sakinlərinə: "Mənə vurduqları zərbələri..."



Şəbnəmdən şou sakinlərinə: "Mənə vurduqları zərbələri..."

"Yaxın bildiklərimin mənə vurduqları zərbələrdən xəbərdaram. Deməsəm də, açıqlamasam da, hamısını bilirəm, hər şeyin öz vaxtı var".

Bakıvaxtı.az xəbər verir ki, bu sözləri müğənni Şəbnəm Tovuzlu "Tarixin bir günü" verilişində deyib.

O, şou sakinlərindən gileylənib: "Bu həyatda saf olmaq lazım deyilmiş. Özümü müdafiə etməyi bacarıram, amma bacarmamış kimi göstərirəm. Mənə zərbə vuranlar evimin içindən yox, şou-biznesdəndir. Çox saflıq edirəm. Kaş ki, onlar mənim kimi böyük qəlbə sahib olsunlar".



# "Belə işə imza atmaq çox qorxulu idi" - Röya Ayxan

***Xəbər verdiyimiz kimi, Xalq artisti Röya Ayxan yeni mahnısını və klipini sevənlərinin ixtiyarına verib.***

"Sevgililər günü"ndə dinləyicilərinə hədiyyə verən Röya klipini ilk dəfə "Elgizlə izlə"nin efirində təqdim edib. Hazırda Türkiyədə olan müğənni ilə telefon əlaqəsi yaradılıb. O, yeni işi barədə təssüratlarını və keçirdiyi estetik əməliyyatdan danışıb.

# Elşən "Ben bu cihana sığmazam"ın kadrarxasını paylaşdı

***Xəbər verdiyimiz kimi, aktyor Elşən Orucov Türkiyənin məşhur "Ben bu cihana sığmazam" serialında rol alıb.***



"Unikal"ın məlumatına görə, sənətçi çəkiliş məkanından kadrarxası görüntülər yayımlayıb. Fotolarda ekran işində baş rolu canlandıran aktyor Oktay Kaynarca, Burak Çelik və Ozan Akba da yer alıb.

Qeyd edək ki, Elşən sözügedən serialda Qardaşov obrazının qardaşı Rəşad obrazını canlandırıb.

# Manana "Sevgililər günü" Parisdə

***Əməkdar artist Manana Çaparidze həyat yoldaşı Georgi ilə birlikdə Fransaya yollanıb.***

Müğənni 14 Fevral "Sevgililər günü"nü Parisdə keçirib. Manana gəzinti görüntülərini sosial şəbəkə izləyiciləri ilə bölüşüb. "Paris şəhərindən hər kəsə sevgilər. Arzu edirəm ki, həyatınız yalnız xoş duyğularla və sevgi ilə dolu olsun" deyə, sənətçi paylaşımında yazıb.

Qeyd edək ki, Georgi və Manana cütlüyünün iki övladı var.



06_27 IYUl-QARA.qxd 2/15/2024 10:34 PM Page 3





# Qanun təsdiqləndi: Hərbçilərin pensiya yaşı artırıldı

***Prezident İlham Əliyev "Hərbi qulluqçuların statusu haqqında", "Hərbi xidmətkeçmə haqqında" Əsasnamə"nin təsdiq edilməsi barədə, "Əmək pensiyaları haqqında" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanunu imzalayıb.***

"Unikal" xəbər verir ki, dəyişikliklərdə hərbçilərin pensiya yaşının artırılması nəzərdə tutulub. Qanunlara edilmiş dəyişikliklə hazırlanmasına dövlət tərəfindən zaman və resurs sərf edilmiş hərbi qulluqçuların formalaşmış təcrübəsindən daha uzun müddət istifadə etmək məqsədilə hərbi qulluqçu kimi pensiyaya çıxmaq üçün minimum xidmətkeçmə tələbi 20 təqvim ilindən 25 təqvim ilinə çatdırılıb.

Dəyişikliyə əsasən, hərbçi qadınların ehtiyatda olma yaş həddi ləğv olunub. Qanunlara edilmiş dəyişikliklə qadınların həqiqi hərbi xidmətdə olmalarının yaş hədləri ilə bağlı "Hərbi vəzifə və hərbi xidmət haqqında" Qanunla "Hərbi xidmətkeçmə haqqında" Əsasnamə arasında ziddiyyətin aradan qaldırılması, gender bərabərliyinin Silahlı Qüvvələrdə də təmin edilməsi məqsədilə qadınların həqiqi hərbi xidmətdə ehtiyatda olmalarının son yaş hədlərinin kişi cinsli hərbi qulluqçularla bərabərləşdirilməsi məqsədəuyğun hesab edilib.

Güzəştli şərtlərlə əmək pensiyası hüququ olan hərbçilər üçün tələblər dəyişib. Bu, Prezident İlham Əliyevin təsdiqlədiyi "Hərbi qulluqçuların statusu haqqında", "Hərbi xidmətkeçmə haqqında" Əsasnamə"nin təsdiq edilməsi barədə", "Əmək pensiyaları haqqında" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" qanunda əksini tapıb.

Qanuna əsasən, aşağıdakı hərbi qulluqçuların (hərbi rütbələrdən məhrum edilmiş hərbi qulluqçular, müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) hərbi qulluqçu kimi yaşa görə əmək pensiyası hüququ olacaq:

- hərbi xidmətdən buraxılanadək 25 təqvim ili və daha çox hərbi xidmət etmiş hərbi qulluqçular;
- hərbi xidmətdən yaşa görə buraxılmış, 30 təqvim ili və daha çox ümumi iş stajı olan, bu stajın azı 15 ilini hərbi xidmətdə keçirmiş şəxslər;
- hərbi xidmətdən xəstəliyinə və ya səhhətinin məhdud imkanlarına, habelə ştatların ixtisarına görə buraxılmış və buraxıldığı gün 48 və daha çox yaşı, 30 təqvim ili və daha çox ümumi iş stajı olan, bu stajın azı 15 ilini hərbi xidmətdə keçirmiş şəxslər;
- hərbi xidmət müddəti 15 il və daha çox olmaqla Çernobıl AES-də qəzanın nəticələrinin aradan qaldırılması işlərində köçürmə zonasında iştirak etmiş hərbi qulluqçular.

Qüvvədə olan qanuna əsasən, aşağıdakı hərbi qulluqçuların (hərbi rütbələrdən məhrum edilmiş hərbi qulluqçular, müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) hərbi qulluqçu kimi yaşa görə əmək pensiyası hüququ var:

- hərbi xidmətdən buraxılanadək 20 təqvim ili və daha çox hərbi xidmət etmiş hərbi qulluqçular;
- hərbi xidmətdən yaşa görə buraxılmış, 25 təqvim ili və daha çox ümumi iş stajı olan, bu stajın azı 12 il 6 ayını hərbi xidmətdə keçirmiş şəxslər;
- hərbi xidmətdən xəstəliyinə və ya səhhətinin məhdud imkanlarına, habelə ştatların ixtisarına görə buraxılmış və buraxıldığı gün 45 və daha çox yaşı, 25 təqvim ili və daha çox ümumi iş stajı olan, bu stajın azı 12 il 6 ayını hərbi xidmətdə keçirmiş şəxslər;
- hərbi xidmət müddəti 15 il və daha çox olmaqla Çernobıl AES-də qəzanın nəticələrinin aradan qaldırılması işlərində köçürmə zonasında iştirak etmiş hərbi qulluqçular.

Qeyd edək ki, bu qanun 2024-cü il yanvarın 1-dən qüvvəyə minir.

# Anar Bayramovun bahalı icarəsi...

## Ümumi dəyəri yarım milyon manatdan çox olan iki tender ətrafında niyə suallar ortaya çıxıb?

***Azərbaycanda bəzi dövlət qurumlarının "maraqlı" xərclərindən biri də icarəyə götürdükləri tikililərin icarə haqlarıdır. Belə ki, bu binaların sahiblərinin kimliyi bir çox hallarda maraq doğurur. Çünki çox zaman həmin bina sahiblərinin gerçək kimliyi ayrı-ayrı iri məmurlara və onların çevrələrinə gedib çıxır.***

Belə obyektlərin tikilib dövlət qurumlarına olduqca baha qiymətə icarəyə verilməsi Azərbaycanda çoxdan bəri məmur-biznesmenlərin qazanc yerinə çevrilib. Bu zaman əlbəttə ki, onların şəxsi əlaqələri və imkanları, eləcə də "əl əli yuyar, əl də üzü" prinsipi əhəmiyyətli rol oynayır...

Yola salmaq üzrə olduğumuz həftə "Azpolitika.info" xəbər verib ki, Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi "Qeyri-yaşayış sahəsinin icarəsi" tenderinin nəticələrini elan edib.

Tenderin qalibi Emil Vidadi Oğlu Orucov adlı fiziki şəxsdir. Müqaviləyə əsasən dövlət qurumu bu şəxsin cəmi 2.000 kvadrat metrlik qeyri-yaşayış sahəsini 320 min manata icarəyə götürüb. Müqavilə həmin sahənin 12 aylıq icarəsini nəzərdə tutur.

Söhbətin konkret olaraq, hansı ünvandan getdiyi göstərilmir. Ancaq məlum olan odur ki, sözügedən qurumun şöbələrinin heç biri şəhərin mərkəzində yerləşmir. Bu baxımdan 2.000 kvadrata 320 min icarə haqqı ödənilməsi kifayət qədər baha olmaqla "təəccüblü" görünür. Belə məlum olur ki, agentliyin ofis üçün aylıq icarə haqqı, təxminən, 26 670 manat müəyyənləşib.

Sözügedən binanı icarəyə verən E.Orucovun ad və soyadı, necə deyərlər, "heç nə demir". Ancaq Azərbaycanda hökm sürən "tender siyasəti" və bu icarə haqqının məbləği müəyyən nəticələr çıxarmağa əsas verə bilər...

"Unikal"ın araşdırması nəticəsində aydınlaşıb ki, adı çəkilən Dövlət Agentliyi 2022-ci ilin oktyabrında da ofis sahəsinin icarəyə götürülməsilə bağlı tender müsabiqəsi həyata keçirib. Həmin müsabiqənin qalibi də Emil Vidadi oğlu Orucov (o vaxtkı VÖEN - 1604117012) olub. Tenderin şərtlərinə görə, qurum E.Orucova məxsus olan və böyük ehtimalla yuxarıdakı qeyri-yaşayış sahəsi ilə eynilik təşkil edən qeyri-yaşayış sahəsini 12 ay müddətinə icarəyə götürüb və 318 min 622 manat 7 qəpik ödəyib.

Beləliklə, 2 tenderin ümumi məbləği yarım milyon manatı keçib.

Xatırladaq ki, el arasında "VTEK" kimi tanınan Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin nəzdində fəaliyyət göstərir. Agentliyin rəhbəri 2021-ci ildən başlayaraq, Anar Bayramovdur. O, bundan əvvəl nazir Sahil Babayevin müşaviri olub.



Yeri gəlmişkən, onu da deyək ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki bəzi qurumlar da bahalı icarələri ilə diqqət çəkir. Məsələn, bir müddət əvvəl yerli KİV-də yayılan məlumata görə, nazirlik yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinin yerləşdiyi inzibati binanın aylıq icarə haqqı bir ay üçün 63 800 manat, Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriyanın yerləşdiyi inzibati binanın icarə haqqı isə aylıq 48 707,1 manatdır.

Bundan başqa, icarə ilə bağlı tenderləri adətən eyni şəxslərin qazanması da diqqətdən yayınmır, yəni Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi "Qeyri-yaşayış sahəsinin icarəsi" tenderini udan Emil Orucov tək deyil. Misal üçün, ƏƏSMN-nin tabeliyindəki Dövlət Sosial Müdafiə Fondunun (DSMF) Sosial Ödənişlərin Təyinatı üzrə Mərkəzi Filialı üçün ofis sahəsinin icarəyə götürülməsilə bağlı tenderin son qalibi Bayramov Amil Qinyaz oğlu (VÖEN - 1003009142) olub. DSMF A.Bayramova məxsus 3000 kv. metr qeyri-yaşayış sahəsini 9 ay müddətinə icarəyə götürüb. İcarə haqqı olaraq isə ona ümumilikdə 445 min 500 manat (ayda 49 min 500 manat) ödəniləcək. Sonradan aydınlaşıb ki, DSMF əvvəlki illərdə də sözügedən şəxs ilə analoji müqaviləni imzalayıb.

Və ya: 2021-ci ildə DSMF-nin Maliyyə və Mühasibatlıq üzrə Mərkəzi Filialı üçün ofis icarəyə götürülüb. Bununla bağlı DSMF fərdi sahibkar Almaz Hacı qızı Hüseynova ilə müqavilə imzalayıb. Qurum ofis üçün 36 aya 986 040 AZN icarə haqqı ödəyib. Bu halda bir ay üçün icarə haqqı 27 390 AZN-ə düşüb. 2022-ci ildə isə DSMF eyni şəxsdən 9 ay müddətinə icarəyə ofis götürüb. Bu müddət üçün ümumi icarə haqqı 240 702 AZN təşkil edib...

Adıçəkilən qurumlar bu cür icarələrlə bağlı keçirilən tenderlər və qaliblərə ödənilən yüksək məbləğlər, sosial şəbəkələrdə yer alan tənqidlər barədə susmağa üstünlük verirlər. Nəticədə cəmiyyətin və KİV-in mövzu ətrafında şübhələri bir az da dərinləşir...

***Toğrul Əliyev***

06_27 IYUl-QARA.qxd 2/15/2024 10:34 PM Page 4



# Ermənistanın təxribatına verilən sərt cavab sonuncu şansdır

***Xəbər verdiyimiz kimi, fevralın 12-də Azərbaycan-Ermənistan şərti dövlət sərhədinin Zəngilan rayonu ərazisindən keçən hissəsində Ermənistan Silahlı Qüvvələrinin Qafan rayonunun Nerkin-And yaşayış məntəqəsi istiqamətində yerləşən mövqeyindən Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının Zəngilan rayonunun Kolluqışlaq kəndi ərazisində yerləşən mövqeyinə atəş açılıb.***

Təxribat nəticəsində Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçusu əsgər Xəlilzadə Pərviz Ağakişi oğlu yaralanıb. Bundan sonra, Dövlət Sərhəd Xidmətinin (DSX) bölmələri tərəfindən Ermənistan Silahlı Qüvvələrinin törətdikləri təxribata cavab olaraq "qisas əməliyyatı" keçirilib. Məlumata görə, əməliyyat nəticəsində əsgərimizə atəş açılan Ermənistan Silahlı Qüvvələrinin Qafan rayonunun Nerkin-And yaşayış məntəqəsinin yaxınlığındakı döyüş postu tamamilə darmadağın edilib, döyüş mövqeləri susdurulub. DSX-nin erməni təxribatına cavab olaraq həyata keçirdiyi "qisas əməliyyatı" nəticəsində 4 erməni hərbçi məhv edilib, bir nəfər yaralanıb.

Göründüyü kimi, sülh danışıqlarına hazırlıq gedən bir ərəfədə belə bir təxribatın törədilməsi sıradan bir hadisə deyil. Paşinyan hökuməti bunu adi sərhəd pozuculuğu kimi dəyərləndirməyə cəhd etsə də, Azərbaycan tərəfi layiqli cavab verərək mövqeyini bir daha ortaya qoydu. Lakin ortada bir gərginlik var və tərəflərin yekun sülhə gələ bilmələri üçün ciddi narahatlıq yaradır. Belə ki, bir sıra iri dövlətlər və beynəlxalq təşkilatlar da gərginlikdən narahatlıqlarını ifadə ediblər.

Moskva israrla Bakı və İrəvanı təmkin nümayiş etdirməyə, vəziyyətin deskalasiyası üçün addımlar atmağa və vəziyyətin daha da pisləşməsinə səbəb ola biləcək hər hansı addımdan çəkinməyə çağırıb. Bu barədə Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova bildirib. Onun sözlərinə görə, bütün yaranan məsələlər müstəsna olaraq dinc, siyasi-diplomatik vasitələrlə həll edilməlidir: "Baş verənlər bir daha təsdiqləyir ki, Azərbaycan və Ermənistan 2020-2022-ci illərdə ən yüksək səviyyədə əldə olunmuş üçtərəfli razılaşmaların icrasına qayıtmalıdırlar. Əminik ki, ərazi mübahisələri Ermənistan-Azərbaycan sərhədinin demarkasiyası və delimitasiyası üzrə ikitərəfli komissiya çərçivəsində həll edilməlidir. Biz bu prosesə məsləhət dəstəyi verməyə hazırıq".

ABŞ-nin Azərbaycandakı səfiri Mark Libbi son günlər Ermənistan-Azərbaycan şərti sərhədində baş vermiş gərginliyə münasibət bildirib. "Belə insidentlər vəziyyətin daha da pisləşmə ehtimalını göstərir. Tərəfləri eskalasiyadan çəkinməyə, dialoqa çağırırıq", - ABŞ səfiri vurğulayıb. Diplomat onu da qeyd edib ki, ABŞ hər zaman Azərbaycan və Ermənistanın ərazi bütövlüyünü tanıyıb: "Biz Azərbaycanın ərazisində hər hansı qurumu tanımamışıq və Azərbaycanın ərazi bütövlüyü ilə bağlı BMT qətnamələrinə səs vermişik".

Avropa Şurası Ermənistan-Azərbaycan sərhədində toqquşmalarla bağlı xəbərlərdən narahatdır. Bu barədə Avropa Şurasının baş katibi Mariya Peyçinoviç-Burić X istifadəçi hesabında yazıb. "Biz Ermənistan və Azərbaycan sərhədində atışma xəbərlərindən narahatıq. Biz tərəfləri güc tətbiq etməkdən çəkinməyə çağırırıq. Dialoq davamlı sülhün yeganə yoludur", - deyə o qeyd edib.

Politoloq Elxan Şahinoğlu deyib ki, Ermənistan tərəfinin törətdiyi təxribata Azərbaycanın sərt və operativ cavab tədbiri yerində atılan addım idi: "Sərhəddəki son insidentlə bağlı müxtəlif suallarla yanaşı belə bir sualla da üzləşdim: "Erməni hərbçinin snayper atəşinə görə qarşı tərəfə zərbə endirmək vacib idimi, bu danışıqlar prosesinə zərbə vurmadımı?" Sual həm də belə əsaslandırıldı ki, Ermənistan Müdafiə Nazirliyi atəşin erməni hərbçisi tərəfindən açıldığını etiraf etmiş və həmin hərbçini cəzalandıracağını açıqlamışdı. Təxribatçıların zərbə ilə cəzalandırılması qərarı bir neçə səbəbdən doğru idi. Birincisi, düşmənə heç zaman boşluq buraxılmamalıdır. Snayper atəşi cavabsız qalsaydı, sonrakı günlərdə başqa erməni snayperləri də Azərbaycan ərazisinə atəş açmağa həvəslənəcəkdilər. İkincisi, Azərbaycan ordusunun erməni postunu darmadağın etməsi Ermənistanın baş naziri Nikol Paşinyana mesaj idi ki, o sülh sazişinin imzalanmasını yubatmaqla gərginliyin artmasına şərait yaradacaq, bu isə həm ona, həm də ölkəsinə baha başa gələcək. Üçüncüsü, Azərbaycan ordusunun məhv etdikləri "Yerkrapa" terrorçu təşkilatının üzvləri idi. Bu Paşinyana digər mesaj idi ki, "Yerkrapa"nı sərhəddən uzaqlaşdırıb tərksilah etməsə, Ermənistan üçün ağır nəticələri olacaq insidentlər yenə yaşanacaq. Əslində, Nikol Paşinyan son insidenti əlində rəhbər tutaraq ordu üzərindəki nəzarəti gücləndirə bilər. Təsadüfi deyil ki, məlum insidentdən sonra Ermənistan ordusunda müxtəlif təyinatlar həyata keçirilib. Ancaq sərhəddəki olaydan bir gün sonra Ermənistana məxsus pilotsuz uçuş aparatının Kəlbəcərdəki mövqelərimiz üzərində kəşfiyyat aparmaq cəhdi onu göstərir ki, qarşı tərəf hələ gərəkən nəticələri çıxarmayıb".

Millət vəkili Fazil Mustafa növbəti erməni təxribatı ilə bağlı danışarkən deyib ki, Ermənistan keçmişdəki əröyünlük dövrlərini yada salmasın. Deputat vurğulayıb ki, Ermənistan illərdir bu cür təxribatlar törədir:

"Təbii ki, hər zaman bu təxribatların nəticəsi məğlubiyyətlə yekunlaşır. Ona görə də, bunun səbəbi nədir, hansı məqsədlə edir artıq bunu düşünmək yerinə cavabını vermək lazımdır. Azərbaycan öz müəyyən imkanları ilə istənilən təxribatın qarşısını ala biləcək gücdədir. Bu baxımdan da, Ermənistanın atdığı addımlar bu qədər bizi narahat etməməlidir. Biz daha çox bu ölkədə Ermənistana qarşı öz siyasətimizi, xüsusilə də, böyük sülh sazişinin imzalanması istiqamətində diplomatik sahədə işlərimizi artırmalıyıq. Eyni zamanda hərbi gücümüzü də artırmalıyıq".



Hərbi ekspert Ədalət Verdiyev isə Ermənistan ordusunun Azərbaycanla sərhəddə törətdiyi təxribatları şərh edərkən deyib ki, İrəvan birdəfəlik anlamalıdır ki, heç bir qüvvə onun arxasında dayana bilməyəcək: "Ermənistan siyasi hərbi rəhbərliyi tam əmin olmalıdır ki, bir nəfər də olsun Azərbaycan əsgərinin qanı yerdə qalmayacaq. Bunu Ali Baş Komandan dəfələrlə bəyan edib. Düşmən təxribatları heç bir zaman cavabsız qalmayıb, qalmır və qalmayacaq". Onun sözlərinə görə, Ermənistan Avropa İttifaqı missiyasının da hazırlanmasında iştirak etdiyi təxribatlardan əl çəkməsə, Azərbaycan Silahlı Qüvvələrinin cavabı daha sərt olacaq: "Düşmənin təxribat törətdiyi hər bir döyüş mövqeyi dar ağacı ediləcək, zərurət yaranarsa, həmin mövqelərdə Azərbaycan əsgəri və dövlət bayrağımız yerləşdiriləcək. Hazırda təxribat törədilən düşmən mövqeyi dağıdılıb, fərari ordusunun canlı qüvvəsi itkilərə məruz qalıb".

Ə.Verdiyev bildirib ki, baş verən bu hadisəyə görə bütün məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin və bu təxribatları təşkil edən Avropa İttifaqının tərkibində fəaliyyət göstərən missiyanın üzərinə düşür: "Aİ missiyası baş verən təxribatlara reaksiya verməklə, təxribatı qınamaq əvəzinə ərazini tərk etməklə işini bitmiş hesab edir. Ermənistan birdəfəlik anlamalıdır ki, heç bir qüvvə onun arxasında dayana bilməyəcək. Nə Ermənistan, nə də onun havadarları öz çirkin niyyətlərini gerçəkləşdirə bilməcəklər. Buna görə də, Paşinyan siyasi avantüralardan əl çəkməlidir. Əks halda, Ermənistan daha ağrılı-acılı nəticələr əldə edəcək. Azərbaycan sülhün tərəfindədir, lakin Ermənistanın törətdiyi təxribatlar sülhün əldə edilməsinə ciddi maneələr yaradır".

**S.Əli**



# "Bakı və Moskva Zəngəzur dəhlizi ilə bağlı razılaşıb" - Tomas de Vaal

***2024-cü il Cənubi Qafqaz üçün kritik il olacaq. "Unikal" xəbər verir ki, bu barədə Cənubi Qafqazın problemləri ilə məşğul olan britaniyalı ekspert Tomas de Vaal "Karnegi" Fondunun saytında dərc olunan məqaləsində yazıb.***

Onun sözlərinə görə, Azərbaycan və Ermənistan məsələsi yenidən gündəmə gəlir: "Otuz illik münaqişədən sonra iki ölkə arasında münasibətləri tənzimləyəcək ikitərəfli sülh sazişi üzrə danışıqlar davam edir, lakin Ermənistanın cənubunda, tarixən Zəngəzur kimi tanınan Sünik bölgəsində hələ də zorakılıq təhlükəsi var. Bu, Azərbaycana yaxın ərazidir".

Ekspert bildirib ki, Ermənistan-Rusiya münasibətləri tənəzzül prosesindədir və Aİ Ermənistanla əlaqələrini gücləndirir.

Tomas de Vaalın sözlərinə görə, Azərbaycanın əsas hissəsini Türkiyə ilə həmsərhəd olan Naxçıvana birləşdirəcək 43 kilometrlik qapalı dəhliz və ya Ermənistan ərazisindən keçən tranzit marşrutunun yenidən açılması Ermənistanla Azərbaycan arasında problem olaraq qalır: "Azərbaycan öz ərazisinin iki hissəsinin mümkün qədər az erməni nəzarətində olacaq marşrutlar vasitəsilə birləşməsində maraqlıdır. Ermənistan strateji əhəmiyyət kəsb edən cənub sərhəd zonasında suverenlikdən və ya təhlükəsizlikdən əl çəkmək istəmir.

Yanvarda Rusiyanın xarici işlər naziri Sergey Lavrov yenidən israr etdi ki, sazişin bu bəndi yerinə yetirilməlidir. Ermənistan tərəfi də öz növbəsində Rusiyanın təsirindən, o cümlədən Sovet İttifaqı dağılandan sonra orada yerləşdirilən sərhədçilərdən xilas olmağa çalışır. Rusların Azərbaycanın istəyi ilə qalması böyük strateji zərbə olacaq. Ermənistanda ehtimal belədir ki, burada Bakı ilə Moskva arasında Ankaranın sakitcə razılaşdığı sövdələşmə var. Ruslar üçün tranzit marşrutuna nəzarət böyük uğur olardı. Onilliklər ərzində ilk dəfə olaraq Rusiya və İranı birləşdirən dəmir yolunun bir hissəsinə və Fars körfəzinə gedən marşrutlara rəsmi olaraq nəzarət onlara veriləcək. Bu, Rusiyanın Yaxın Şərqlə əlaqələrini bərpa etməsi üçün böyük şimal-cənub dəmir yolu marşrutu olacaq".

Ekspert onu da deyib ki, Azərbaycan Ermənistanın cənubunda istədiyini almayana qədər heç bir sülh sazişi imzalanmayacaq: "Yəni 2024-cü ildə Ermənistan çox güman ki, həm Bakıdan, həm də Moskvadan müxtəlif üsullarla Zəngəzur dəhlizi layihəsinə qoşulmaq üçün böyük təzyiqlərə məruz qalacaq ki, bu da nə İrəvan, nə də Qərb dövlətləri tərəfindən rahatdır".

**Ağarza Elçinoğlu**

# Prezidentdən şəhid ailələri və müharibə əlilləri ilə bağlı sərəncam



***Prezident İlham Əliyev "Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı bir sıra tədbirlər haqqında" Sərəncamında dəyişiklik edilməsi barədə Sərəncam imzalayıb.***

"Unikal" xəbər verir ki, Sərəncama dəyişikliklə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yerli icra hakimiyyəti orqanları ilə birlikdə yaşayış sahəsinə ehtiyacı olan qismində uçota alınmış və 2020-2023-cü illərdə aparılan hərbi əməliyyatlar zamanı Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin, konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslər və şəhid ailələrinin 2021-2025-ci illər ərzində mərhələlərlə mənzil və ya fərdi evlə təmin edilməsi üçün Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla tədbirlər planını təsdiq edib həyata keçirəcək.

# Azərbaycan XİN Paşinyana cavab verdi

***Ermənistanın Baş naziri Nikol Paşinyanın 15 fevral tarixli hökumət iclasında növbəti dəfə səsləndirdiyi əsassız iddialar bölgədə qəsdən gərginlik yaratmaq məqsədi daşıyır.***

Bu barədə "Unikal"a XİN-dən bildirilib. "İlk növbədə qeyd edək ki, hərbi qulluqçunun yaralanmasına cavab olaraq ölkəmizin həyata keçirdiyi tədbirlərin təcavüz kimi qiymətləndirilməsi faktların saxtalaşdırılmasıdır. 12 fevral tarixində Ermənistan tərəfinin təxribatlarının 5 aya yaxın müddətdə hökm sürən sabitliyi pozduğu və bunun məsuliyyətinin Ermənistan tərəfində olduğu hər kəsə yaxşı məlumdur. Eyni zamanda, Ermənistan Müdafiə Nazirliyinin Azərbaycan hərbçisinin yaralanması faktı ilə bağlı araşdırma aparılacağı barədə vədlərinə indiyə qədər nəyə görə əməl olunmadığına izahat verilməsi, habelə Ermənistanın sərhəd postlarında müxtəlif hərbi qruplaşmalara məxsus muzd-



luların Müdafiə Nazirliyinə hansı əsasda tabe olması məsələsinə aydınlıq gətirilməsi faydalı olardı.

Azərbaycanın anklav və eksklav kəndləri məsələsinə istinad edən Ermənistan baş naziri növbəti dəfə guya Azərbaycanın 31 kəndin ərazilərini işğal altında saxladığını iddia etməsi siyasi manipulyasiyanın tərkib hissəsidir. Əvvəlki bəyanatlarında belə kəndlərin 32 olduğunu bildirən baş nazirə xatırlatmaq istərdik ki, Azərbaycanın səkkiz kəndinin geri qaytarılmasına dair Ermənistanın öhdəlikləri mövcuddur.

Həmçinin, 1991-ci ilin sərhədləri və Alma-Ata bəyannaməsi əsasında ərazi bütövlüyünə və delimitasiyanın həyata keçirilməsinə istinad edən Ermənistan tərəfinin son 35 ilə yaxın müddətdə nəyə görə bu xəritələrə və razılıqlara əməl etmədiyinə, Sovet xəritələrində əksini tapmış sərhədləri qəbul etməkdən imtina etdiyinə, Azərbaycan ərazilərini işğal etdiyinə izahat verməsi yaxşı olardı.

Ermənistanın bütün qonşularının ərazi bütövlüyünü dəstəklədiyini iddia edən baş nazirə Ermənistan Konstitusiyasında, qüvvədə olan qanunvericilik aktlarında, rəsmi məktublarında, rəsmi bəyanatlarında, beynəlxalq təşkilatlar və məhkəmələrdə yaydığı sənədlərdə Azərbaycanın ərazi bütövlüyünə qarşı davam edən iddialarını xatırlatmaq istərdik.

Ermənistan tərəfi həqiqətən də sülh prosesində maraqlıdırsa, Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə qarşı iddialarından əl çəkməlidir", - qeyd olunub.

# Qarabağ Universitetinə 10 milyon manat ayrıldı




***Prezident İlham Əliyev Qarabağ Universitetinin fəaliyyətinin təşkili üçün maliyyə vəsaiti ayrılması haqqında Sərəncam imzalayıb.***

"Unikal" xəbər verir ki, Sərəncama əsasən, Qarabağ Universitetinin fəaliyyətinin təşkilinə maliyyə dəstəyi göstərilməsi üçün Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinə 10 milyon manat ayrılıb. Maliyyə Nazirliyinə bu Sərəncamda göstərilən məbləğdə maliyyələşməni təmin etmək, Nazirlər Kabinetinə bu Sərəncamdan irəli gələn məsələləri həll etmək tapşırılıb.

# Milli Məclis yeni Baş nazirin təyin edilməsi məsələsinə baxacaq

***Fevralın 16-na Milli Məclisin növbədənkənar iclası çağırılıb.***

"Unikal" xəbər verir ki, iclasda Milli Məclis Prezident İlham Əliyevin təqdimatına baxacaq.

Təqdimata əsasən, Milli Məclis yeni Baş nazirin təyin edilməsinə razılıq vermək məsələsinə baxmalıdır.

Qeyd edək ki, iclas saat 10:00-da başlayacaq.

Azərbaycan Respublikası Milli Məclisinin 2024-cü il 16 fevral tarixli iclasının gündəliyinə təklif olunan məsələlər:

1. "Su təchizatı və tullantı suları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

2. Azərbaycan Respublikasının 1994-cü il 8 fevral 782 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Konsul Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

3. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

4. "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

5. "Avtomobil yolları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Res-



publikası qanununun layihəsi (ikinci oxunuş).

6. "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

7. Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi.

**ELAN**

**Füzuli rayonunun 43 saylı tam orta məktəbi tərəfindən 2005-ci ildə Əliyev Cavid Kamaləddin oğluna verilmiş tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.**

***

**Əhmədov Elman Tofik oğluna məxsus Bakı şəhər Səbail rayonu Salyan şossesi 23 D ünvanında yerləşən fərdi yaşayış evinin çıxarışı itdiyi üçün etibarsız sayılsın**

Baş redaktor:
**Zaur Əhməd**

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.

Tiraj:2000

# Azərbaycan, Türkiyə və Gürcüstan XİN rəhbərləri görüşəcəklər

***Gürcüstan və Türkiyənin xarici işlər nazirləri İlya Darçiaşvili və Hakan Fidan Cənubi Qafqazdakı vəziyyəti və regional təhlükəsizlik çağırışlarını müzakirə ediblər.***

"Unikal" xəbər verir ki, bu barədə Gürcüstan Xarici İşlər Nazirliyinin mətbuat xidməti məlumat yayıb.

"Nazirlər regionda güclü və sabit inkişaf üçün sülhün bərqərar olmasının vacibliyini bir daha vurğuladılar. Bu baxımdan Gürcüstan və Türkiyənin rolu qeyd olunub", - məlumatda deyilir.

Qeyd olunub ki, Türkiyədə keçirilən görüşdə tərəflər həmçinin strateji tranzit və enerji layihələrinin həyata keçirilməsi, Gürcüstan, Azərbaycan və Türkiyənin tranzit potensialını müzakirə ediblər. Bu kontekstdə Bakı-Tbilisi-Qars kəmərinin, eləcə də "Orta Dəhliz"in reallaşdırılmasının vacibliyi qeyd edilib.

# Əsgərlərin andiçmə mərasimlərinə heç kəs buraxılmayacaq

***Fevralın 18-də Azərbaycan Ordusunun təlim hissə və bölmələrində gənc əsgərlərin andiçmə mərasimləri qapalı şəraitdə keçiriləcək.***

"Unikal" xəbər verir ki, bu barədə Müdafiə Nazirliyi və TƏBİB birgə məlumat yayıb.

"Məlum olduğu kimi Azərbaycanın müxtəlif regionlarında qızılcaya, eləcə də mövsümü xarakter daşıyan respirator virus infeksiyalarına yoluxma halları qeydə alınır.

Hazırda ölkəmizin səhiyyə qurumları tərəfindən əks-epidemik və profilaktik tədbirlərin aparılması davam etdirilir. Əhalinin



sağlamlığının qorunması və kəskin respirator virus infeksiyalarına yoluxma hallarının qarşısının alınması üçün peyvəndlənmə ilə yanaşı, yoluxma hallarını nəzərə alaraq qapalı məkanlarda sıx toplaşma tövsiyə olunmur.

Azərbaycan Ordusunda hərbi qulluqçuların sağlamlığına xüsusi diqqət yetirilir, şəxsi heyətin respirator virus infeksiyalara yoluxma hallarının qarşısını almaq məqsədilə hərbi hissələrdə mütəmadi olaraq zəruri profilaktik tədbirlər görülür.

Görülən tədbirlər çərçivəsində valideynlərin, eləcə də ictimaiyyət və media nümayəndələrinin hərbi hissələrə girişi, o cümlədən andiçmə mərasimlərində iştirakı məhdudlaşdırılacaq.

Vətəndaşlarımızdan bu qərarı anlayışla qarşılamağı və andiçmə mərasimlərinə gəlməməyi xahiş edirik", - deyə məlumatda bildirilir.

06_27 IYUl-QARA.qxd 2/15/2024 10:34 PM Page 6



# İlham Əliyevin ünvanına təbriklər gəlməkdə davam edir

***Almaniya Federativ Respublikasının Kansleri Olaf Şolts Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təbrik məktubu göndərib.***

“Unikal” xəbər verir ki, məktubda deyilir: “Çox hörmətli cənab Prezident. Yenidən Azərbaycan Respublikasının dövlət başçısı seçilməyiniz münasibətilə sizi təbrik edirəm. Almaniya bundan sonra da Azərbaycana modernləşmə kursunda və hüquqi dövlətçilik strukturlarının möhkəmləndirilməsi yolunda dəstək verməyə hazırdır. Sizinlə Münhen Təhlükəsizlik Konfransında görüşəcəyimizə şadam. Ali dövləti fəaliyyətinizdə sizə uğurlar arzulayıram”.

BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Vladanka Andreyeva Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təbrik məktubu göndərib.



Məktubda deyilir: “Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz və vəzifənizi icra etməyə başlamağınız münasibətilə BMT-nin Azərbaycandakı nümayəndəliyi adından səmimi təbriklərimi qəbul etməyinizi xahiş edirəm. Bu fürsətdən istifadə edərək BMT-nin Azərbaycandakı nümayəndəliyinin 2021-2025-ci illər üçün Dayanıqlı İnkişaf üzrə Əməkdaşlığa dair Çərçivə Sənədinə uyğun olaraq Azərbaycanın dayanıqlı inkişafla bağlı milli prioritetlərini dəstəkləməyə davamlı sadiqliyini bildirirəm”.

Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri Rişi Sunak İlham Əliyevi Azərbaycan Prezidenti seçilməsi münasibətilə təbrik edib. Təbrikdə deyilir: ”Hörmətli Prezident Əliyev. Yenidən Azərbaycan Respublikasının Prezidenti vəzifəsində səlahiyyətlərinizin icrasına başlamağınız münasibətilə Sizə ən xoş arzularımı çatdırıram. Ötən 30 ildən artıq müddətdə ölkələrimiz arasındakı münasibətlər daha da güclənib. Təkcə son 12 ay ərzində biz Ukraynaya dəstək vermək üçün birgə işləmişik, Londonda strateji dialoqumuzu aparmışıq, minalardan təmizlənmə üzrə təcrübəmizi bölüşmüşük və ticarət əlaqələrimizi qurmağa davam etmişik. 2024-cü il Azərbaycan üçün daha çox əhəmiyyət kəsb edir, çünki siz noyabrda COP29-a ev sahibliyi etməyə hazırlaşırsınız. Enerji keçidlərini irəliyə aparmaq və qlobal emissiyaları azaltmaq baxımından bu, həyati əhəmiyyətli bir məqamdır. Məmnuniyyətlə bildirmək istəyirəm ki, biz artıq COP26-nın ev sahibi kimi öz dəstəyimizi və təcrübəmizi təklif edirik. COP29-un uğurla keçirilməsi üçün sizə dəstək verəcəyimizə əmin olar bilərsiniz.

Mən, həmçinin Ermənistanla sülh əldə etmək istiqamətində göstərilən səylər barədə də məlumatlıyam. Bu, münaqişəyə son qoymaq üçün tarixi bir şansdır. Mən davamlı müqavilənin hər iki ölkənin və ümumilikdə bütün regionun rifahı və sabitliyi üçün gətirəcəyi böyük faydaları yüksək qiymətləndirirəm. Davamlı sülhə nail olunmasında hər iki ölkəyə Böyük Britaniyanın davamlı dəstəyini bir daha vurğulayıram. Yeni səlahiyyət müddətinizdə Sizə uğurlar arzulayır və tərəfdaşlığımızı daha da möhkəmləndirmək üçün Sizinlə işləməyi səbirsizliklə gözləyirəm”.

Bundan başqa, Bosniya və Herseqovinanın Rəyasət Heyətinin üzvü Denis Beçiroviç də dövlətimizin başçısına təbrik məktubu göndərib. Məktubda deyilir: “Bosniya və Herseqovinanın vətəndaşları adından və şəxsən öz adımdan Sizi Azərbaycan Respublikasının Prezidenti seçkisində qələbəniz münasibətilə təbrik edirəm. Uzun illərdir ki, ölkələrimiz arasında səmimiyyət və dostluq üzərində qurulmuş münasibətlər yaxşı əməkdaşlıqla səciyyələnir. İkitərəfli münasibətlərin ümumi maraq doğuran bütün sahələrdə bundan sonra da dostluq ruhunda inkişaf edəcəyinə inandığımı, ölkələrimizin və xalqlarımızın rifahı naminə tərəfdaşlığın qorunub saxlanmasına və genişləndirilməsinə sadiq qaldığımı bildirirəm. Bu xüsusda mən Sizinlə yeni görüşlərimizi və əməkdaşlığımızın davamını səbirsizliklə gözləyirəm. Zati-aliləri, Sizə və Azərbaycan Respublikasının vətəndaşlarına ən xoş arzularımı və ehtiramımı bildirirəm”.

Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri Jelko Komşiç Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təbrik məktubu göndərib. Məktubda deyilir: “Sizi ölkənizdə keçirilmiş prezident seçkisində qazandığınız qələbə münasibətilə Bosniya və Herseqovinanın vətəndaşları, Rəyasət Heyəti adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edirəm. Qarşıdakı dövrdə tərəfdaşlıq və dostluq münasibətlərinə söykənən əməkdaşlığımızın davam etməsini və sizin Bosniya və Herseqovinaya səfəriniz zamanı imzaladığımız iki ölkə arasında strateji tərəfdaşlıq haqqında Bəyannamənin həyata keçirilməsini səbirsizliklə gözləyirəm. Möhtərəm Prezident, sizi seçkidəki inamlı qələbəniz münasibətlə bir daha təbrik edir, sizə, ailənizə və Azərbaycan Respublikasının vətəndaşlarına xüsusi ehtiramımı bildirir, möhkəm cansağlığı və yeni uğurlar arzulayıram”.

Konqo Respublikasının Prezidenti Deni Sassu-Nqesso Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təbrik məktubu göndərib.

Məktubda deyilir: “Seçkidə inamlı qələbəniz, yenidən Prezident seçilməyiniz münasibətilə Konqo xalqı və dövləti adından, şəxsən öz adımdan sizə səmimi təbriklərimi çatdırmaqdan xüsusi məmnunluq duyuram. Bu xoş fürsətdən istifadə edərək ölkələrimiz arasında mövcud olan dostluq və əməkdaşlıq münasibətlərini yüksək qiymətləndirirəm. Bu baxımdan, ölkələrimiz üçün faydalı maraqlara uyğun olaraq münasibətlərimizin möhkəmləndirilməsi istiqamətində Zati-alinizlə birgə işləməyə hazır olduğumu bir daha bildirirəm. Sizə uzun ömür, xoşbəxtlik, ali dövləti fəaliyyətinizdə böyük uğurlar arzu edirəm. Cənab Prezident, xahiş edirəm ən yüksək ehtiramımı qəbul edin”.



## Prezident Arif Paşayevi təbrik etdi

***Prezident İlham Əliyev Akademik Arif Paşayevə təbrik məktubu göndərib.***

”Unikal” xəbər verir ki, məktubda deyilir: ”Hörmətli Arif müəllim! Sizi 90 illik yubileyiniz münasibətilə səmimi-qəlbdən təbrik edirəm. Görkəmli nəslin nümayəndəsi və ailə dəyərlərini uca tutan şəxsiyyət kimi Sizin alicənablıq, sadəlik və xeyirxahlıqla səciyyələnən şərəfli həyat yolunuz əsl ziyalılığın parlaq nümunəsidir.

Siz Azərbaycan elminin inkişafında mühüm xidmətləri ilə tanınan dəyərli alimlərimizdənsiniz. Uzun illər ərzində apardığınız sanballı araşdırmalar, müəllifi olduğunuz ixtiralar və rəhbərliyiniz altında görülən xüsusi əhəmiyyətə malik işlər elmi ictimaiyyət tərəfindən daim maraqla qarşılanmış, ölkəmizdə və onun hüdudlarından kənarda Sizə şöhrət qazandırmışdır.

Nüfuzlu təhsil təşkilatçısı kimi göstərdiyiniz təqdirəlayiq fəaliyyət zəngin və səmərəli elmi yaradıcılığınızı üzvi surətdə tamamlayır. Azərbaycan Milli Aviasiya Akademiyasının rektoru olaraq mülki aviasiyamız üçün yüksəkixtisaslı kadrların hazırlanmasında, habelə Akademiyanın regionun mötəbər ali təhsil müəssisələrindən birinə çevrilməsində böyük əməyiniz vardır.

Çoxsaylı elmi nailiyyətləriniz və təhsilin inkişafındakı əvəzsiz xidmətləriniz həmişə yüksək qiymətləndirilmişdir. Uğurlarına ürəkdən sevindiyiniz, qayğılarına hər zaman şərik olduğunuz həmkarlarınızın və yetirmələrinizin, dostlarınızın və yaxınlarınızın Sizə sevgisi isə qazandığınız ən dəyərli sərvətdir.

Əziz Arif müəllim!

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik və işlərinizdə yeni-yeni müvəffəqiyyətlər arzulayıram”.

## Bakıda məktəblinin ölüm səbəbi açıqlandı

***Fevralın 12-də saat 22:51 radələrində 03.09.2010-cü il təvəllüdlü (qadın cinsli) şəxs Sabunçu Tibb Mərkəzinin nəzdindəki Məhəmmədi Modul Tipli Xəstəxanasına hospitalizasiya olunub.***

TƏBİB-dən ”Unikal”a verilən məlumata görə, azyaşlıda 03.02.2024-cü il tarixindən infeksion mənşəli xəstəliyə yoluxma halı qeydə alınıb: “Tibb müəssisəsinə vəziyyəti son dərəcə ağır, şok vəziyyətində, intoksikasiya əlamətləri ilə daxil olub. Ona qızılcanın ensefalitlə ağırlaşması, kəskin tənəffüs çatışmazlığı, ürək-damar çatışmazlığı, kəskin böyrək çatışmazlığı, hipovolemik şok diaqnozu təyin edilib. Pasiyentin 13.02.2024-cü il tarixində vəziyyəti pisləşib, tənəffüs və ürək-damar çatışmazlığı əlamətləri qeyd edilib. Həmin gün saat 19:40 radələrində pasiyentdə ürək fəaliyyətinin dayanması halı baş verib, aparılan reanimasiyon tədbirlər nəticə verməyib. Ölüm səbəbi kəskin ürək-damar, tənəffüs çatışmazlığı və kəskin böyrək çatışmazlığı olaraq qeyd olunur”.

Xatırladaq ki, Bakı şəhəri Səbail rayonu 51 saylı orta məktəbin 8-ci sinif şagirdi Nuray Süleyman qızı İbrahimovanın qızılcadan vəfat etdiyinə dair məlumat yayılmışdı.



## Qubad İbadoğlunun həbs müddəti daha 3 ay uzadıldı

***Nərimanov Rayon Məhkəməsinin qərarı ilə Azərbaycan Demokratiya və Rifah Partiyasının sədri Qubad İbadoğlu barəsində seçilmiş qətimkan tədbirinin müddəti daha 3 ay uzadılıb.***

"Unikal" xəbər verir ki, bu barədə onun vəkili Zibeydə Sadıqova məlumat verib.

Qeyd edək ki, Q.İbadoğlu Cinayət Məcəlləsinin 204.3.1 (saxta pul və ya qiymətli kağızlar hazırlama, əldə etmə və ya satma mütəşəkkil dəstə tərəfindən törədildikdə) və 167-3.1-ci (dini ekstremist materialları hazırlama, saxlama və ya yayma) maddələri ilə ittiham olunur.

## "Ermənistan və Azərbaycan arasında sülh danışıqlarını dəstəkləyirik" - Rəisi

***Ermənistan baş nazirinin müavini, Ermənistan-İran İqtisadi Əməkdaşlıq Komitəsinin sədri Mher Qriqoryan Tehranda İran prezidenti İbrahim Rəisi ilə görüşüb.***



"Unikal" xəbər verir ki, bu barədə İran prezidentinin saytı məlumat yayıb. "Biz Tehran və İrəvan arasında əldə olunmuş razılaşmaların tam şəkildə həyata keçirilməsinin tərəfdarıyıq", - Rəisi bildirib.

O, Cənubi Qafqazın problemlərinə toxunaraq, sabitliyin və təhlükəsizliyin qorunması istiqamətində İslam Respublikasının səylərini qeyd edib.

İran prezidenti daha sonra Ermənistan və Azərbaycan arasında sülh danışıqlarını alqışlayıb və dəstəklədiyini bildirib: "Biz problemlərin həlli bəhanəsi ilə bölgədə əcnəbilərin olmasına razılaşmırıq və inanırıq ki, onların mövcudluğu nəinki problemi həll etməyəcək, həm də region xalqları və hökumətləri üçün daha böyük problemə çeviriləcək".

# "Azərbaycanla zarafat etmək olmaz"

## Aydın Mirzəzadə: "Prezident İlham Əliyev çıxışında bir daha xəbərdarlıq etdi ki, belə təxribatlara son qoyulmalıdır"

***Milli Məclisin deputatı Aydın Mirzəzadə "Unikal"a müsahibə verib. O, Prezident İlham Əliyevin fevralın 14-də keçirilən andiçmə mərasimindəki nitqində yeni dövrdə hansı nailiyyətlərin olacağından, Ermənistan tərəfinin sərhəddə törətdiyi son təxribatlardan, ordu quruculuğu prosesindən və başqa məsələlərdən danışıb.***

***- Aydın müəllim, Prezident İlham Əliyev fevralın 14-də keçirilən andiçmə mərasimindəki nitqində bildirib ki, yeni dövr başlayır. Dövlət başçısı bu dövrün böyük nailiyyətlərinin olacağını qeyd edib. Yaxın vaxtlarda hansı yeniliklərin şahidi ola bilərik?***

-Yeni dövr əvvəlki dövrə söykənərək başlayır. Bu dövrə qədər Azərbaycan dövlətçiliyinin möhkəmlənməsində, iqtisadi qüdrətinin artırılmasında, beynəlxalq birlikdə layiqli yer tutmasında böyük işlər görülüb. Görəcəyimiz yeni hədəflər bundan irəli gəlir. Həmçinin, cənab Prezident çıxışında bildirdi ki, biz indiyə qədər Qarabağ məsələsi ilə məşğul idik. İndi isə bu problem yoxdur və dünya birliyində daha böyük işlərlə məşğul olacağıq. Bu, sülh, sabitlik, ekoloji tarazlıq və s. məsələlərdir. Bunu ancaq o dövlət lideri deyə bilər ki, dövlətin buna kifayət qədər potensialı olsun. Eyni zamanda, dövlət başçısının bunun üçün aydın proqramı var. Qarşıda bizi dövlətçiliyimizin möhkəmlənməsi, vətəndaşlarımızın hüquq və azadlıqlarının daha yüksək şəkildə təmin edilməsi, sahibkarlığa dəstək, regionlarımızın inkişafı, sosial vəziyyətin daha da yaxşılaşması və başqa məsələlər gözləyir. Prioritetlərimiz bundan ibarətdir. Hesab edirəm ki, bunu etmək üçün kifayət qədər həm siyasi iradəmiz, həm də resursumuz var. Ən əsası isə Azərbaycan xalqı onun qarşıda duran bu məsələlərə doğru inkişafını təmin edən liderini görür. Prezident İlham Əliyevin seçkilərdə 92 faiz səs toplaması bunu bir daha sübut etdi.

***-Azərbaycan lideri andiçmə mərasimindəki nitqində qeyd edib ki, bu günlərdə Ermənistan tərəfindən törədilmiş yeni təxribata dərhal adekvat cavab verildi, düşmən cəzalandırıldı. Ermənilərin son günlərdə törətdikləri təxribatın məqsədi nədir?***

-Bu təxribatın icraçısı Ermənistan olsa da, onu dəstəkləyən qüvvələr hər kəsə aydındır. Bu xaricdəki ermənipərəst qüvvələr, Fransa, Kanada və son dövrlər Ermənistanı silahlandıran Hindistandır. Ermənistana verilən silahlar nə vaxtsa atəş açmalı idi. Amma onlar yaddan çıxarmalı deyil ki, Azərbaycanın bu cür təxribatlara cavab vermək üçün kifayət qədər gücü var. Azərbaycan sərhədçisini yaralayan snayperin olduğu post darmadağın edildi, Ermənistan bir neçə hərbçisini itirdi. Ermənistan və onu dəstəkləyən qüvvələr bir daha yəqin etdilər ki, Azərbaycanla zarafat etmək olmaz. Azərbaycan qürurunu, dövlətçiliyini, müstəqilliyini qoruya bilir. Prezident İlham Əliyev çıxışında bir daha xəbərdarlıq etdi ki, belə təxribatlara son qoyulmalıdır. Azərbaycanla ancaq beynəlxalq hüquq və normal qonşuluq münasibətləri ilə danışmaq olar.

***-Dövlət başçısı ordu quruculuğu prosesinin davam etdiriləcəyini vurğulayıb. Belə ki, Silahlı Qüvvələrimizin gələcək inkişafı ilə bağlı lazımi addımlar atılır, silah-sursat, texnika alınır, yeni silahlı birləşmələr yaradılır. Qarşıdakı dönəmdə ordu quruculuğu ilə bağlı hansı yeniliklər ola bilər?***

-Görülən işlər göz qabağındadır. Müvafiq dövlət strukturu, ən əsası cənab Prezident vaxtaşırı bu və ya digər sahə üzrə cəmiyyəti geniş məlumatlandırır. Ordu quruculuğu vacib məsələdir. Ordu olmasa, dövlətin müstəqilliyini, ərazi bütövlüyünü qorumaq olmaz. Həmişə bu məsələyə ciddi diqqət yetirilib. Baxmayaraq ki, müharibə bitib, amma təhdidlər qalmaqdadır. Ona görə də Azərbaycanın güclü ordusu, müasir silahlara malik olan hərbi qüdrəti olmalıdır. Silahlar zaman-zaman köhnəlir. Həmçinin, ordunun strukturunun yenidən qurulması məsələsini qeyd edərdim. Xüsusi Təyinatlı Qüvvələrin, yeni yaradılmış "Komando" silahlı birləşmələrində hərbçilərin sayının bir neçə dəfə artırılması bundan irəli gələn məsələlərdir. Bu baxımdan, ordunun yenilənməsi həmişə diqqətdə olacaq. Doğrudur, xaricdən silah alınması na davam ediləcək. Eyni zamanda, Azərbaycan özünün hərbi sənaye kompleksini yenidən qurmaq məqsədini qarşısına qoyub. 2005-ci ildə Müdafiə Sənayesi Nazirliyi yaradılandan sonra bu istiqamətdə böyük işlər görülüb. Bununla yanaşı daha da böyük hədəflərimiz var. Bu sahəyə bir milyard manat vəsaitin yönəldilməsi yeni növ silahların istehsalına başlayacağımızdan xəbər verir. Bu, silah almaq üçün xaricə xərclədiyimiz vəsaitin Azərbaycanda qalmasına, yeni iş yerlərinin yaradılmasına, eyni zamanda, istehsal etdiyimiz silahın bir hissəsini xarici bazarda sataraq əlavə valyutanın ölkəmizə gətirilməsinə səbəb olacaq.

***-Ölkə rəhbəri çıxışında bildirib ki, yeni dövrdə xarici siyasət istiqamətində yeni üfüqlər açmalıyıq. Bu baxımdan, qarşıdakı illərdə xarici siyasətdə hansı yeniliklər gözlənilir?***

-Prezident İlham Əliyev ilk prioriteti səsləndirdi. Bizim ailəmiz Türk dünyasıdır. Türk dövlətləri ilə əlaqələrimiz gündən-günə genişlənəcək. Daha çox sahələrdə əməkdaşlığımız olacaq, inteqrasiyamız daha yüksək səviyyəyə çatacaq. Artıq bu nümunə var. Bu təkcə Azərbaycanın deyil, digər türk dövlətlərinin də istəyidir. Bunu münasibətdə görürük. Özbəkistanın Füzuli şəhərində orta məktəb, Qazaxıstanın Gənclər Yaradıcılıq Mərkəzini tikməsi, özünü türkdilli dövlət sayan Macarıstanın Azərbaycanın bir kəndinin yenidən qurulması layihəsində iştirakı buna bariz nümunədir. Azərbaycanın ildən-ilə türk dövlətləri ilə ticarət əlaqələri güclənir. Humanitar sahədə, münasibətlərdə ciddi irəliləyişlər var. O cümlədən, Azərbaycan beynəlxalq birliyin aktiv üzvü kimi bundan sonra da öz siyasətini gücləndirəcək.



***-Prezident həmçinin çıxışı zamanı Azərbaycan-Ermənistan münasibətlərindən də danışıb. "Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması prosesi beynəlxalq gündəlikdən düşməlidir. Çünki yerindən duran bu məsələ ilə məşğul olmaq istəyir, gedin, öz işinizlə məşğul olun. Biz öz məsələmizi həll etmişik", - deyə Ali Baş Komandan bildirib. Qarşıdakı müddətdə Azərbaycan-Ermənistan münasibətlərində, o cümlədən sülh müqaviləsinin imzalanması ilə bağlı hansı işlər görüləcək?***

-Əldə olunan ən ciddi nəticə ondan ibarətdir ki, Azərbaycan və Ermənistan vasitəçi olmadan kontaktlar qurmağı bacarır. Bir müddət əvvəl hərbi əsirlərin dəyişdirilməsi, Azərbaycan-Ermənistan sərhədində Baş nazirin müavinlərinin iki dəfə görüş keçirməsi buna aid məsələlərdir. Azərbaycanın istəyi ondan ibarətdir ki, münasibətlər ilk növbədə iki dövlətin özünün istəyi ilə baş tutsun. O vasitəçilər ki, iştirak etmək istəyirlər, onlar ancaq bizim münasibətlərimizə dəstək ola bilərlər. Təəssüf ki, vasitəçilərin əhəmiyyətli hissəsi münasibətləri pozmaq, Ermənistanı yenidən hərbi münaqişəyə təhrik etmək istəyir. Bu baxımdan, Azərbaycana arzuolunmaz vasitəçilər lazım deyil. Azərbaycan Ermənistanla öz münasibətlərini həll edə bilər. Sülh müqaviləsinin imzalanmasına doğru gedən yol isə çətin və uzundur. Addım-addım həmin məqsədə çatmağın özü də vacib məsələ hesab edilə bilər.

***Anar Kəlbiyev***

# Azərbaycanda yeni nazirlik yaradıla bilər

## Ölkə səhiyyəsi ilə bağlı həm vətəndaşları, həm də həkimləri narazı salan üçtirəliyə son qoyulması gözlənilir

***Fevralın 7-də keçirilən Prezident seçkilərinin ardından yola salmaq üzrə olduğumuz həftə Nazirlər Kabineti istefa verdi.***

Xatırladaq ki, Konstitusiyanın 116-cı maddəsinə əsasən, yeni seçilmiş Prezident vəzifəsini tutduğu və səlahiyyətlərini icra etməyə başladığı gün Nazirlər Kabineti Azərbaycan Respublikası Prezidentinə istefa verir.

Konstitusiyanın 118-ci maddəsinə görə, Baş naziri Milli Məclisin razılığı ilə Prezident təyin edir. Baş nazir vəzifəsinə namizədlik haqqında təklifi Prezident öz vəzifələrinin icrasına başladığı gündən bir ay və ya Nazirlər Kabinetinin istefa verdiyi gündən iki həftə müddətindən gec olmayaraq Milli Məclisin müzakirəsinə təqdim edir.

Onu da deyək ki, Prezidentin çərşənbə günü imzaladığı sərəncama əsasən, hökumətin yeni tərkibi formalaşdırılanadək kabinet üzvlərinin səlahiyyətlərinin icrası Nazirlər Kabinetinin əvvəlki tərkibinə həvalə olunub.

Bəzi ekspertlər yeni formalaşdırılacaq hökumətin tərkibində müəyyən dəyişikliklərin olacağını proqnozlaşdırır. Belə proqnozların özünü doğruldub-doğrultmayacağını zaman göstərəcək.

Bu arada ortaya atılan maraqlı iddialardan biri üç dövlət qurumunun birləşdiriləcəyi ilə bağlıdır. Belə ki, Səhiyyə Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi (İTSDA) və bu qurumun nəzdində fəaliyyət göstərən TƏBİB vahid ad altında birləşərək, Səhiyyə və Sığorta Nazirliyinə çevriləcəyi istisna edilmir. Vurğulanır ki, bu qərarla bir müddətdir Azərbaycanda yerli medianın "səhiyyədə üçbaşlılıq" kimi qiymətləndirdiyi, təkcə vətəndaşların yox, elə həkimlərin də ciddi şəkildə narazı olduğu problem yoluna qoyula bilər.

O da iddia edilir ki, İTSDA və TƏBİB əslində mövcudluqlarını qoruyacaqlar, sadəcə adı çəkilən yeni nazirliyə tabe olacaqlar. Başqa bir iddia isə bundan ibarətdir ki, TƏBİB ümumiyyətlə ləğv ediləcək və bu qurumun səlahiyyətləri Səhiyyə Nazirliyinə qaytarılacaq.



Xatırladaq ki, bir müddət öncə "Unikal" qəzeti bu mövzuda geniş yazı dərc eləmişdi. Həmin yazıda bildirilirdi ki, hazırda sözügedən sektorda üç ayrı qurum söz sahibidir: hansısa tibbi xidmət üçün müraciət edən vətəndaşı Səhiyyə Nazirliyi TƏBİB-ə, TƏBİB İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinə, o da yenidən Səhiyyə Nazirliyinə yönəldir. Süründürməçiliklərdə hövsələdən çıxan vətəndaşın dərdi üstünə dərd gəlir.

Hətta həkimlər də bu üçtirəliyin səhiyyə sektorunda çaşqınlıq yaratmasından, yersiz narazılıqlara yol açmasından şikayətçidirlər. Məsələn, həkim-radioloq Aydın Əliyev bir müddət öncə ölkədə səhiyyə siyasətinin düzgün qurulmamasından giley-güzar etmişdi. Sitat: "...səhiyyə siyasətini normalda həyata keçirməli olan qurum Səhiyyə Nazirliyidir. Faktiki olaraq isə Azərbaycanda bu dəqiqə tibbi xidmət göstərən TƏBİB-dir. O da İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinə (İTSDA - red.) aiddir... Hazırda səhiyyə sahəsində haçalanma, tirələnmə və intriqa var ki, bunun da əziyyətini xalq çəkir".

Mütəxəssis əlavə eləmişdi ki, hazırda həm İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinə, həm TƏBİB-ə, həm də Səhiyyə Nazirliyinə inamsızlıq var: "Ölkədə tibbi xidməti həyata keçirən həkimlərdir... Həkim, tibb bacısı, kömək personal və digərlərinin əksəriyyəti isə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyindən narazıdır... İnsanlarımız da keyfiyyətli tibbi xidmət tələb edir ki, onlar da haqlıdır..."

Qeyd edək ki, Azərbaycan səhiyyəsində yaranmış üçtirəlik, bunun yaratdığı problemlər, nəticə etibarilə isə həm tibb işçiləri, həm də vətəndaşlarda yaratdığı narazılıq və narahatlıq hələ 2 il öncə də gündəmə gəlmiş, ciddi müzakirə mövzusuna çevrilmişdi. Həmin vaxt məsələ ilə bağlı açıqlama verən Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev bildirmişdi ki, bu gün səhiyyədə tibbi xidmətin qurulması, həm İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, həm TƏBİB, həm də Səhiyyə Nazirliyi tərəfindən göstərilən xidmətlər bizim arzu etdiyimiz səviyyədə deyil.

Ötən il isə başqa bir deputat - Razi Nurullayev TƏBİB və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin ləğvini təklif etmişdi: "Ölkədə bir səhiyyə qurumu saxlayaq. Bu da Səhiyyə Nazirliyi olsun. TƏBİB ləğv edilməlidir. İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi isə vəzifəsinin öhdəsindən gələ bilmədiyi üçün onun avtonom fəaliyyəti ləğv edilməli və Səhiyyə Nazirliyinin tabeçiliyinə verilməlidir. Bu barədə Milli Məclisdə məsələ qaldırmaqla yanaşı, həm də nail olmaq üçün əlimdən gələni edəcəyəm. Azərbaycan vətəndaşları TƏBİB və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi ilə cəhənnəm əzabı yaşayırlar. Bu vəziyyət vətəndaşları narazı salır".

***Sənan Mirzə***

# Deputat qiymətlərin bahalaşmasından danışdı



***"Dövlət Statistika Komitəsinin məlumatına görə, 2024-cü ilin yanvar ayında qiymətlər 2023-cü ilin eyni ayına nisbətən 1,7 faiz artıb".***

"Unikal" xəbər verir ki, bunu iqtisadçı deputat Vüqar Bayramov deyib. O bildirib ki, inflyasiya səviyyəsi qida məhsulları, içkilər və tütün məmulatları üzrə 0,7 faiz, qeyri-qida məhsulları üzrə 1,7 faiz, əhaliyə göstərilmiş ödənişli xidmətlər üzrə isə 3,2 faiz olub: "İnflyasiya meyillərinin səngiməsi daha çox idxal olunan məhsullarda inflyasiya dərəcəsinin aşağı düşməsi ilə bağlıdır. Belə ki, inflyasiyanın strukturunda idxal olunan məhsullarının qiyməti xüsusi çəkiyə malik olduğundan regional bazardakı dəyişikliklər qiymət indeksinə təsirsiz ötüşmür. Bütövlükdə, inkişaf etmiş dövlətlərdə və eləcə də əksər region ölkələrində inflyasiya meyillərinin səngiməsi müşahidə olunur".

Deputat qeyd edib ki, ötən ay üzrə inflyasiyanın stukturunda diqqəti çəkən əsas məqam xidmətlərin qiymətindəki artımın ümumi istehlak qiymətləri indeksini təxminən 2 dəfə bənd üstələməsidir: "Rəsmi inflyasiya səviyyəsi 1.7 faiz olduğu halda xidmətlərdə qiymətlər 3.2 faizə yüksəlib. Bunun əsas səbəbi bir sıra xidmətlər üzrə yanvardan reallaşan artımlar olsa da, ödənişli xidmətlərin qiymətinin monitorinq edilməsi olduqca vacibdir. Ötən ay xidmətlərin qiyməti hətta qida məhsullarının xərcindən də sürətlə artıb. Buna görə də, bu artımların real əsaslarının olub-olmamasının araşdırılmasına ehtiyac var".

# Səhiyyə Nazirliyindən qızılca ilə bağlı çağırış

***Səhiyyə Nazirliyi əhaliyə bir daha müraciət edərək qızılcaya həssas 11-40 yaşlı əhali qruplarını da infeksiyaya qarşı peyvənd olunmağa çağırıb.***



Nazirlikdən "Unikal"a verilən məluamta görə, ötən ilin aprelindən başlayaraq, digər ölkələrdən gətirilmə hadisələrlə əlaqəli qızılcaya yoluxma halları Azərbaycanın müxtəlif regionlarında infeksiyanın yerli yayılmasına səbəb olub.

Qeyd olunub ki, yaranmış epidemioloji vəziyyətin təhlili yoluxanların böyük əksəriyyətinin qızılcaya qarşı heç vaxt peyvənd olunmayan və xəstəliyi keçirməyən şəxslərin olduğunu göstərir:

"Bununla əlaqədar Azərbaycan ərazisində əks-epidemik və profilaktik tədbirlərin aparılması davam etdirilir. Azərbaycanda Səhiyyə Nazirliyi tərəfindən təsdiq olunmuş Profilaktik peyvəndlər təqviminə əsasən 10 yaşa qədər uşaqların vaksinasiyası davamlı olaraq həyata keçirilir. Qızılca infeksiyasından qorunmağın ən effektiv yolunun vaksinasiya olduğunu nəzərə alaraq, Səhiyyə Nazirliyi əhaliyə bir daha müraciət edərək, qızılcaya həssas 11-40 yaşlı əhali qruplarını da infeksiyaya qarşı peyvənd olunmağa çağırır. Vaksinasiya üçün yaşayış yerləri üzrə uşaq və böyük əhalisinə ambulator-poliklinik xidmət göstərən tibb müəssisələrinə müraciət oluna bilər".

# "Azərbaycan ilə yüksək iqtisadi göstəricilərlə başlayıb" - Nazir

***2024-cü ilə Azərbaycan iqtisadiyyatı yüksək göstəricilərlə başlayıb.***

"Unikal" xəbər verir ki, bunu iqtisadiyyat nazirinin səlahiyyətlərini icra edən Mikayıl Cabbarov bu gün keçirilən "Vergi sistemi yeni inkişaf dövründə: davamlı iqtisadiyyat üçün strateji hədəflər" adlı Forumda deyib.

O bildirib ki, ölkəmizdə neft-qaz hasilatının proqnozlaşdırılandan enməsi, dünya bazarlarında qiymətlərin aşağı düşməsi fonunda ÜDM-in nominal həcminə təsirlər təbii və gözlənilən idi.

"Buna baxmayaraq, biz prosesə hazır idik. Son illər qeyri-neft-qaz sektorunda aparılan islahatlar və dəstək tədbirləri bu gün iqtisadi artımın dayanıqlığını təmin edir. 2023-cü ildə qeyri-neft-qaz sektoru 3,7% artım dinamikasına malik olub", - deyə M. Cabbarov əlavə edib.



# Heydər Əliyev Mərkəzində sərgi keçirilir

***Heydər Əliyev Mərkəzində qanalı rəssam Kojo Marfonun "Ümid sınağı" ("Crucible of hope") adlı fərdi sərgisi açılıb.***

"Unikal" xəbər verir ki, sərginin açılışında Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva iştirak ediblər.

Açılış mərasimdən əvvəl rəssam Kojo Marfo jurnalistlərə açıqlamasında sərginin möhtəşəm təşkil edildiyini deyib: "Buraya gəlməzdən əvvəl Azərbaycanla bağlı ünvanladığım suallarımda ancaq xoş sözlər eşitdim. Bakıya ilk gəlişimdir. Burada olmaqdan və sərgimi keçirməkdən çox məmnunam. İnsanları mədəniyyət yaxınlaşdırır. Mədəniyyət sahəsində bizləri birləşdirən bir çox xüsusiyyətlər var. İlk sərgimi keçirməzdən əvvəl kifayət qədər həyatımı düşündüm. Həyatıma bir çox simalar daxil oldu, məhz onlar mənim əsərlərimin özünü təşkil edirlər və onlar məni sərgi keçirməyə həvəsləndirdilər. Bu isə insana hər zaman ümid verir".

Açılış mərasimində çıxış edən sərginin kuratoru Jan-Davit Malat (Jean-David Malat) Bakıya səfərinin bu əsərləri digər insanlara sərgiləməklə yanaşı, həmçinin gözəl şəhərdən həzz almaq imkanı yaratdığını qeyd edib. O, Kojo Marfonun solo sərgisinin təşkil edilməsinə görə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva, Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva və Heydər Əliyev Mərkəzinin direktoru Anar Ələkbərova öz minnətdarlığını bildirib, bundan sonra da bu cür sərgilərin keçiriləcəyinə ümidvar olduğunu söyləyib.

Rəssam Kojo Marfo çıxışı zamanı bildirib ki, sərgi onun uşaqlıq illərində gördüklərinə ithaf olunub, hər bir əsərin ardında bir mesaj dayanıb və bu mesajlar əsərlərlə insanlar arasında olan bağlantını əks etdirir. K.Marfo qeyd edib ki, əsərlərin mövzusu insanlara xas olan, onların vacib bildiyi amallarla bağlıdır. "Mənim üçün böyük şərəfdir ki, yaratdığım əsərləri belə gözəl, möhtəşəm binada sərgiləmək imkanı qazandım. Bunun üçün Heydər Əliyev Fonduna minnətdarlığımı bildirirəm", - deyə rəssam əlavə edib.

Sonra sərgiyə baxış olub.

Sərgidə rəssam Kojo Marfonun əlvan rəngləri ilə nəzərləri özünə cəlb edən, izləyicilərinə xoş, hətta bəzən bayram əhvali-ruhiyyəsi bəxş edən 20-dən çox əsəri nümayiş olunub.

Sərgilənən əsərlər qanalı rəssamın uşaqlıq xəyallarını müasir dünyanın reallığı ilə bir-birinə qarışdırır. Hər bir əsərində isə bir-birinə məharətlə bağlanan məna və emosiya qatları ziyarətçilərə Kojo Marfonu daha dərindən kəşf etmək imkanı qazandırır. Marfonun əsərləri cəmiyyət üçün güzgü funksiyasını daşıyır, dərin düşüncələrin yaranmasına ilham verir. Rəssamın fərqli zəkasını, yumor hissini və dərin müşahidə bacarığını nümayiş etdirən bu sərgi ziyarətçilərə Marfonun özünün hansı düşüncələrə malik olduğunu anlamağa fürsət yaradır.

Qeyd edək ki, Kojo Marfo Londonda yaşayan qanalı rəssamdır. O, uşaqlıqdan tanış olduğu Afrikanın ənənəvi Akan artefaktlarının, heykəllərinin təsiri altında rəssam kimi inkişaf edib. Çoxsaylı səyahətlər də Marfonun müxtəlif mədəniyyətlərlə tanışlığına və həmin mədəniyyətlərin yaradıcılığında əks edilməsinə səbəb olub. Marfonun yaradıcılığı ilə tanışlıq mədəniyyət dəhlizləri ilə səyahət etməyə bənzəyir.

Kojo Marfonun sənət əsərləri bundan əvvəl Amsterdam, Barselona, London, Nyu-York, Paris, Tokio və digər şəhərlərdə nümayiş etdirilib.

# Nazirlik təhsildə qrant müsabiqəsi elan etdi

***Elm və Təhsil Nazirliyi "Təhsildə inkişaf və innovasiyalar üzrə VIII qrant müsabiqəsi"ni elan edir. Müsabiqədə dövlət tam orta və təşkilati-hüquqi formasından asılı olmayaraq bütün ümumi təhsil müəssisələrində çalışan pedaqoji işçilər iştirak edə bilərlər.***

"Unikal" xəbər verir ki, müsabiqənin məqsədi təhsil müəssisələri və təhsilverənlər arasında sağlam rəqabətin və innovativ fəaliyyətin stimullaşdırılmasıdır. Müsabiqəyə təqdim olunacaq layihə sənədlərinin qəbulu 27 fevral - 1 aprel 2024-cü il tarixlərində www.grants.edu.az saytı üzərindən həyata keçiriləcək. Qrant müsabiqəsi barədə daha ətraflı məlumatla aşağıdakı elan vasitəsilə tanış ola bilərsiniz.

# Elşad Nuriyevin vəzifədən azad edilməsinin sirri...

## İqtisadi Zonaların İnkişafı Agentliyinin rəhbərliyində dəyişiklik aqroparklarda nəyi dəyişəcək?

***Bu yaxınlarda İqtisadiyyat Nazirliyinin İqtisadi Zonaların İnkişafı Agentliyinin İdarə Heyətinin sədri Elşad Nuriyev vəzifəsindən azad edilib.***

Müvafiq əmrə əsasən İqtisadi Zonaların İnkişafı Agentliyinin İdarə Heyətinin sədri vəzifəsinə Adıgözəlov Seymur Elmir oğlu təyin edilib.

Qeyd edək ki, Seymur Adıgözəlov həmin təyinatadək İqtisadi Zonaların İnkişafı Agentliyinin İdarə Heyəti sədrinin müavini vəzifəsində çalışırdı. O, həm də "Bakı Gəmiqayırma Zavodu"nun direktoru kimi fəaliyyət göstərirdi və adı çəkilən Agentliyin rəhbəri təyinatından sonra bu vəzifədən azad edilib.



"Bakı Gəmiqayırma Zavodu"nun İdarə Heyətinin sədri vəzifəsinə isə Elşad Nuriyev təyin olunub.

İqtisadi Zonaların İnkişafı Agentliyinin İdarə Heyətinin sədri postundakı dəyişikliyin səbəbi nədir?

Qeyd etmək yerinə düşər ki, sözügedən qurum Azərbaycan Respublikası Prezidentinin "Sənaye parklarının, sənaye məhəllələrinin və aqroparkların idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" 22 yanvar 2021-ci il tarixli 1257 nömrəli fərmanı ilə "Sumqayıt Kimya Sənaye Parkı" MMC-nin əsasında publik şəxs kimi yaradılıb. 2021-ci il 21 dekabr tarixli 1506 nömrəli fərman ilə Agentliyin nizamnaməsi təsdiq edilib. İqtisadi Zonaların İnkişafı Agentliyi 2021-ci 28 dekabr tarixində dövlət qeydiyyatına alınıb. Hazırda Agentliyin idarəçiliyində 6 sənaye parkı, 4 sənaye məhəlləsi, 51 aqropark və Peşə Təhsil Mərkəzi fəaliyyət göstərir.

Son vaxtlar istər sənaye parklarının, istərsə də aqroparkların fəaliyyəti ilə bağlı müxtəlif tənqidi mülahizələr irəli sürülür, onların bir çox hallarda özünü doğrultmamasından danışılırdı. Xüsusilə aqroparklar haqqında tənqidlər diqqət çəkirdi. Bildirilirdi ki, əyalətlərdə yeni iş yerlərinin yaradılması və əhalinin Bakıya kütləvi axınının qarşısının alınması baxımından bu müəssisələrin fəaliyyəti ayrıca önəm daşıyır. Elə aqroparkların yaradılmasında məqsəd də aqrar sahədə inkişafın sürətləndirilməsi, kənd təsərrüfatı məhsullarına olan tələbatın ödənilməsi, ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsi, ixracyönümlü məhsulların istehsalının artırılması, kiçik və orta sahibkarlığın inkişafı ilə yanaşı yuxarıda haqqında bəhs etdiyimiz məqamdır.

Lakin sözügedən müəssisələrin fəaliyyəti hələlik istənilən səviyyədə deyil. Belə olmasaydı, regionların sosial-iqtisadi inkişafına yatırılmış 104 milyard manatlıq investisiyalara rəğmən rayonlardan Bakıya köçün davam etməsi müzakirə mövzusuna çevrilməzdi.

Xatırladaq ki, ötən il Azərbaycan Miqrasiya Mərkəzi İctimai Birliyindən verilən məlumata görə, ölkə ərazisinin 2,5%-ni təşkil edən paytaxt Bakı özündə əhalinin 25%-dən çoxunu cəmləşdirib. Sitat: "Qeyri-rəsmi məlumatlara görə isə bu gün Bakıda təqribən 3 milyondan çox insan daimi yaşayır. Hər gün regionlardan 500 mindən çox insan paytaxta qısamüddətli giriş-çıxış edir. Paytaxtın avtomobil yollarında sutka ərzində 1 milyona yaxın nəqliyyat vasitəsi hərəkətdə olur. Son 30 ildə qeyri-təbii urbanizasiya paytaxtda və bütövlükdə ölkədə ciddi problemlərə səbəb olub. Kəndlərdə əhalinin sayı sürətlə azalıb. Bu da bölgələrdə iqtisadi inkişafa, kənd təsərrüfatı məhsullarının istehsalına mənfi təsir göstərib. Paytaxtın həddən artıq "yüklənməsi" ekoloji vəziyyətin pisləşməsi, çirklənmə, tıxaclar və s. kimi ciddi problemlərin yaranmasına səbəb olub. Tənzimlənməyən miqrasiya Bakının və ətraf qəsəbələrin görünüşünə də təsirsiz ötüşməyib. Eyni zamanda kommunal təchizatda ciddi yüklənmələr müşahidə olunur..."

Beləliklə, son 20 ildə regionların sosial-iqtisadi inkişafına yatırılmış 104 milyard manat fonunda ortaya maraqlı suallar çıxırdı. Məsələn, niyə insanlar öz doğma yurd-yuvalarında deyil, Bakıda yaşamağa üstünlük verirlər? Bölgələrdən paytaxt və ətrafına axının səbəbi nədir? Niyə rayonlarda yaşayanlar iş üçün Bakıya üz tuturlar? Axı elə həmi axın səbəbindən hazırda Bakıda insan sıxlığı və hərəkət məhdudiyyəti yaşanır.

Əslində hər kəsə aydındır ki, əyalətlərdə zavod və fabriklərin, kənd təsərrüfatı və sənaye müəssisələrinin az olması, əlverişli biznes mühitinin yoxluğu paytaxta kütləvi axını şərtləndirən başlıca amildir. O da aydın həqiqətdir ki, uzun illər boyunca bölgələrə büdcədən ayrılan vəsaitlər heç də tamamilə effektiv, təyinatı üzrə xərclənməyib. Eyni zamanda aqroparklarla bağlı ümidlər özünü doğrultmayıb.

Belə güman etmək olar ki, hökumət də bunun fərqindədir və ona görə də sözügedən sahəyə məsul qurumun rəhbərliyində dəyişiklik qərarı verilib. Ümid edək ki, Seymur Adıgözəlovun təyinatından sonra biz aqroparkların fəaliyyətində ciddi canlanma müşahidə edəcəyik. Bu, əyalətlərdə işsizlik problemini böyük ölçüdə həll etmək, bölgələrdə iqtisadi dinamizm yaratmaq, beləcə, "şəhərdən kəndə köç"ü stimullaşdırmaq baxımından həyati əhəmiyyətlidir.

***Toğrul Əliyev***

06_27 IYUI-QARA.qxd 2/15/2024 10:34 PM Page 10



# Azərbaycanın Zəngəzur dəhlizi ilə bağlı B planı...

## Elmar Məmmədyarov: “Ermənistana ehtiyac olmadan İran vasitəsilə bu işləri həyata keçirmək olar”



***”Bəzi Avropa İttifaqı rəsmilərinin Azərbaycan ekspansionizmi ilə bağlı iddiaları əsassızdır”.***

”Unikal” xəbər verir ki, bunu Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyov ”Brussels Signal”a müsahibəsində deyib. Rəsmi Avropa İttifaqı diplomatiyasının rəhbəri Borrelin Azərbaycana qarşı bəyanatları reallığı əks etdirmədiyini bildirib: ”Mən fürsətdən istifadə edərək bu iddiaları tamamilə rədd edirəm. Azərbaycanın Ermənistana heç bir ərazi iddiası yoxdur. İcazə verin, sizi yeni terminologiyaya əməl etməyə dəvət edim, bu gün Azərbaycanın Qarabağ bölgəsi var, ona görə də Dağlıq Qarabağ köhnəlmiş və işlək olmayan bir addır”.

Diplomat Zəngəzur dəhlizi ilə bağlı suala belə cavab verib: ”Azərbaycan tərəfi dəfələrlə açıq şəkildə bəyan edib ki, ölkəmizin iki hissəsi arasında rabitə əlaqəsini bərpa etmək istəyimizdə biz bunu Ermənistanın ərazisini zəbt etmək yolu ilə təmin olunmasını düşünmürük. Biz bu rabitə xəttinin bərpa olunmasının tərəfdarıyıq və bu bağlantı sovetlər dövründə mövcud idi. Dediyimiz sadəcə odur ki, Ermənistan üzərinə götürdüyü öhdəliklərə əməl etməlidir. Öhdəliklərdən biri 2020-ci ilin noyabrında Azərbaycan, Ermənistan və Rusiya tərəfindən imzalanmış üçtərəfli atəşkəs sazişindən irəli gəlir. Onlar Azərbaycanın iki hissəsi arasında bu əlaqəni təmin etməyə razılaşıblar. Çünki bu yolla Naxçıvan Muxtar Respublikasının təcrid vəziyyətinə son qoyulmuş olacaq. Bununla belə, bizim Ermənistana heç bir ərazi iddiamız yoxdur. Biz bu dəhlizi hərbi yolla ələ keçirmək istəmirik. Zəngəzur dəhlizi yalnız Azərbaycanın iki hissəsi arasında bağlantı deyil, həm də bu, orta dəhlizin alternativ marşrutuna çevrilə bilər. Fikir verin, bu gün Ermənistan istənilən regional iqtisadi layihədən tamamilə təcrid olunub. O, Azərbaycanla münaqişəsi və Türkiyə ilə həll olunmamış problemlərinə görə tamamilə oyundan kənardır. Sülhdən Ermənistan da faydalana bilər. Ancaq bunun faydalarını dərk etmək istəmirlərsə, biz buna təkan verməyəcəyik”.

Əmirbəyov Azərbaycanın B planının olduğunu da istisna etməyib: ”Bunun üçün bizim B planımız var. Əgər Ermənistan bu əlaqənin öz ərazisindən keçməsini istəmirsə və təklifimizin bəhrəsini dərk etmək iqtidarında deyilsə, biz Naxçıvanla nəqliyyat bağlantısını İran vasitəsilə həyata keçirməyə hazırıq. Biz İran tərəfi ilə bu barədə danışıqlara artıq çoxdan başlamışıq”.

”Avropa İttifaqı diplomatiyasının rəhbəri Cozef Borrel Azərbaycana qarşı əsassız iddialar səsləndirib”.Bunu ”Unikal”a açıqlamasında sabiq xarici işlər naziri Elmar Məmmədyarov deyib. O bildirib ki, Prezident İlham Əliyev ötən gün andiçmə mərasimində etdiyi çıxışında bu iddialara cavab verib: ”Həmin adamlar başa düşürlər ki, Cənubi Qafqazda ən zəif oyunçu Ermənistandır. Mən düşünürəm ki, onlar belə bəyanatlar verməklə Ermənistanda öz nüfuzlarını yüksəltmək istəyirlər. Azərbaycan hökuməti dəfələrlə bəyan edib ki, müharibə etmək niyyətində deyil. Vurğulamaq lazımdır ki, delimitasiya və demarkasiya üzrə komissiya fəaliyyət göstərir. Eyni zamanda sülh müqaviləsi üzərində ciddi və intensiv iş gedir. Avropa və Amerika tərəfindən belə bəyanatların verilməsi yalnız Ermənistanda onların öz nüfuzlarını qaldırmağa hesablanıb. Mənim zənnimcə, Avropa İttifaqı gələcəkdə Ermənistanı qorumaq bəhanəsilə onları silahlandırmağa cəhd göstərə bilər”, - deyə sabiq nazir qeyd edib.

Elmar Məmmədyarov Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyovun Zəngəzur dəhlizi ilə bağlı fikirlərini də şərh edib: ”Elçin Əmirbəyov qeyd edib ki, Azərbaycanın Zəngəzur dəhlizi ilə bağlı B planı var. Məncə, B planı ondan ibarətdir ki, Azərbaycan bütün lazımi sazişləri İran tərəfi ilə bağlayacaq. Ona görə qərar qəbul olunub ki, avtomobil və dəmir yolu körpüləri tikilsin. Burada çətin bir şey yoxdur. İran tərəfindən keçdikdən sonra, Ordubad istiqamətindən Naxçıvana yolu açarıq. Bu da, təxminən 45 kilometr məsafə deməkdir. Türklər də qərar qəbul etdilər. Onlar Qarsdan Naxçıvana yol çəkmək istəyirlər. Orada dağlıq relyef olduğu üçün yol çəkilməsi bir qədər çətindir. Buna baxmayaraq, Ermənistana ehtiyac olmadan İran vasitəsilə bu işləri həyata keçirmək olar”.

***Murad İbrahimli***

# Prezidentin göstərdiyi təhdid ünvanları və Azərbaycanın “Ermənistan ssenarisi”nə hazırlığı - TƏHLİL



***Fevralın 14-də Azərbaycan Prezidenti İlham Əliyevin Milli Məclisdə andiçmə mərasimi keçirilib. Prezident Əliyev andiçmə mərasimində Azərbaycanın daxili və xarici siyasətinin hazırkı durumu və gələcəyi barədə bir sıra mühüm detalları açıqlayıb.***

Prezident İlham Əliyev andiçmə mərasimindəki çıxışında Azərbaycanın Qarabağ və ərazi bütövlüyü barədə mövqeyini bir daha konkret ifadə etdi. Ermənistanın havadarlarına xitabən “Yerindən duran bu məsələ ilə məşğul olmaq istəyir, gedin, öz işinizlə məşğul olun. Biz öz məsələmizi həll etmişik”, - dedi.

Siyasi təhlilçi Aqşin Kərimov hesab edir ki, Prezident İlham Əliyevin Milli Məclisdə andiçmə mərasimindəki çıxışı Azərbaycanın daxili və xarici siyasətlərinin konseptual istiqamətlərinin əhəmiyyətli dərəcədə genişlənəcəyini göstərir. Onun sözlərinə görə, İ.Əliyevin əvvəlki illərdəki andiçmələrindən fərqli olaraq, gələcək üçün müəyyənləşdirmə aktı Azərbaycanın xarici siyasət səhnəsində öz təsirini daha geniş miqyasda artıracağına, Azərbaycanın regional prosesləri uzunmüddətli sülhlə nəticələndirməkdən ötrü cilalama aparatının təkmilləşəcəyinə, Azərbaycanın müdafiə qüdrətinin, ordu gücünün, silah arsenalının və elit qüvvələrinin regional təhdidlər fonunda ən üstün səviyyəyə qədər irəliləyəcəyinə işarə edir: “İlham Əliyevin həmin istiqamətlər üzrə tezisləri Azərbaycan-Ermənistan sülh gündəliyi, bu proqramı pozmaq istəyən qüvvələrin ambisiyalarının fonunda perspektiv mənalı cavab tədbirlərini özündə cəmləşdirir. Bu mənada, sərhədlərin təhlükəsizliyindəki mükəmməl sistemin yaradılması Azərbaycanın cavab addımlarının sürətini və çevikliyini artıran faktordur. Ona görədir ki, Əliyev gələcək üçün sərhədlərin daha güclü qorunmasını müvafiq qurumların qarşısında önəmli vəzifə kimi qoydu. Şübhəsiz ki, bu, Azərbaycanın sərhədləri boyunca mümkün təxribat cəhdlərinin motivlərini araşdırmağa yardımçı olacaq, lakin bir məsələ var ki, onu ayrıca diqqətdə saxlamaq lazımdır. Əliyev çıxışında sərhədlərin təhlükəsizliyini Azərbaycanın xarici risklərdən qorunması aktı kimi səsləndirərək ideoloji istiqamətlərə də diqqət çəkdi. Prezident dedi ki, Bütün mümkün olan potensial risklər Azərbaycan hüdudlarından kənarda yerləşir və formalaşır, Azərbaycan təhlükəsizlik tədbirlərinin gücləndirilməsi və sərhədlərin möhkəmləndirilməsi nəticəsində özünü həm fiziki, həm də ideoloji risklərdən qorumalıdır”.

Müsahibimiz deyib ki, Azərbaycan ona qarşı ölkə hüdudlarından kənarda qalaqlanan təhdid ocaqlarını (ideoloji əsaslı fiziki) aşkarlamaq, həmin mənbələrdən yola çıxaraq dövlətə qarşı koordinatlar quran qeyri-leqal şəbəkələrin işini iflic etmək çağırışı ilə üzləşir. Onun fikrincə, Azərbaycan bu məsələdə strateji müttəfiqi olan Türkiyənin verdiyi kəşfiyyat məlumatları və tərəfdaş ölkələrin bəzi məxfi hesabatları ilə tanış olmaqla üstün mövqeyə yiyələnə bilər: “Prosesin böyükölçülü miqyası Yaxın Şərqdə genişlənən eskalasiya həyəcanı fonunda ekstremizmin alovlanması, radikal təşkilatların “çiçəklənməsi” və bunun Cənubi Qafqaza təsirləri fonunda təhlil edilə bilər. İlham Əliyevin sərhədlərlə əlaqədar təqdim etdiyi istiqamətlərdən biri də Ermənistanla münasibətlərin normallaşması prosesinin işığında əhəmiyyət daşıyırdı. İlk olaraq, Əliyevin Azərbaycan-Ermənistan mövcud “sıfır nöqtələri”ni şərti sərhəd kimi xarakterizə etməsi Bakının öz şərtlərini yeni regional konyunktura uyğun böyüdəcəyinin anonsudur. Yəni, Əliyev yenidən prezident kimi fəaliyyətində: Sərhədlərin delimitasiyasının Azərbaycanın istədiyi və tələb etdiyi formada aparılması qaydalarını, Zəngəzur dəhlizinin açılmasındakı Bakının təqdim etdiyi istiqamətlərin reallaşmasını, Qərbi azərbaycanlıların qayıdışının təminini prioritet olaraq regional gündəlik müstəvisinə daşımağa davam edəcək. Həmin üç “cəbhə”nin aktiv saxlanılması Əliyevin Ermənistana “Konstitusiyanı dəyişdir” xəbərdarlıqlarının müşayiətində yeni mərhələ kimi başa düşülə bilər. Çünki Əliyev “Əgər bizə qarşı ərazi iddialarına son qoyulmazsa, əgər Ermənistan öz qanunvericiliyini normal qaydaya salmazsa, təbii ki, sülh müqaviləsi olmayacaq” deyərək, ordu quruculuğu, hərbi potensialın gücləndirilməsi mövqeyi ilə fikrinin ardını gətirdi. Gec-tez Ermənistanda Konstitusiya dəyişikliklərinin qaçılmaz olduğu görünə bilər. Lakin bir sual dövriyyədə fırlanır - görəsən, erməni cəmiyyəti, müxalifəti mümkün dəyişikliklərə hansı formada reaksiya verəcək və onlar iğtişaşlara gedəcəkmi? Hər halda, Azərbaycan Ermənistana ana qanununu dəyişdirməyi məsləhət görürsə, onun mümkün praktiki nəticələrinə də hazırlıq ssenarilərinə malikdir”.

***H.İsgəndərov***

06_27 IYUl-QARA.qxd 2/15/2024 10:34 PM Page 11



# Masallı rayonunda heyvandarlıq məhsullarının istehsalı artmışdır - STATİSTİKA



***Masallı Rayon Statistika İdarəsindən verilən məlumatda bildirilir ki, 2023-cü ildə heyvandarlıq bölməsi üzrə diri çəkidə 6377,4 ton ət, 50525,8 ton süd, 59105,0 min ədəd yumurta və 148,8 ton isə yun istehsal edilmişdir. 2022-ci ilin müvafiq dövrünə nisbətən ət istehsalı 0,9 ton, süd istehsalı isə 955,0 ton, yumurta istehsalı 2,0 min ədəd, yun istehsalı isə 0,1 ton artmışdır.***

*Cədvəl 1*

**Heyvandarlıq məhsullarının istehsalı**

| | 2023-cü il | 2022-ci il | 2023-cü il 2022-ci ilə nisbətən | |
|---|---|---|---|---|
| | | | % | +, - |
| Ət (diri çəkidə), ton | 6377,4 | 6376,5 | 100,0 | 0,9 |
| Süd, ton | 50525,8 | 49570,8 | 101,9 | 955,0 |
| Yumurta, min ədəd | 59105,0 | 59103,0 | 100,0 | 2,0 |
| Yun (fiziki çəkidə), ton | 148,8 | 148,7 | 100,1 | 0,1 |

2024-cü ilin yanvar ayının 01-i vəziyyətinə 74075 baş iribuynuzlu mal-qara (ondan 37460 baş inək və camışlar), 96030 baş qoyun və keçilər, 1340 baş atlar, 3 baş eşşəklər, 532075 baş quşlar, 9799 vahid isə arı ailələri mövcud olmuşdur. Əvvəlki illə müqayisədə iribuynuzlu mal-qaranın sayı 72 baş (0,1 faiz), qoyun və keçilərin sayı 286 baş (0,3 faiz), quşların sayı isə 1924 baş (0,4 faiz) artmış, atların sayı 21 baş (1,5 faiz), eşşəklərin sayı isə 3 baş ( 50,0 faiz) azalmışdır.

**Cədvəl 2**

**Mal-qaranın və quşların sayı, yanvar ayının 01-i vəziyyətinə, baş**

| | 2023-cü il | 2022-ci il | 2023-cü il 2022-ci ilə nisbətən | |
|---|---|---|---|---|
| | | | % | +, - |
| İribuynuzlu mal-qara | 74075 | 74003 | 100,1 | 72 |
| ondan: | | | | |
| inək və camışlar | 37460 | 37349 | 100,3 | 111 |
| Qoyun və keçilər | 96030 | 95744 | 100,3 | 286 |
| Atlar | 1340 | 1361 | 98,5 | - 21 |
| Eşşəklər | 3 | 6 | 50,0 | - 3 |
| Quşlar | 532075 | 530151 | 100,4 | 1924 |
| Arı ailələri, vahid | 9799 | 9771 | 100,3 | 28 |

Rayon ərazisində fəaliyyət göstərən 6 süni mayalandırma məntəqələrində 2023-cü ildə süni mayalandırılmış 2473 baş inək, camış və düyələrdən 2096 baş bala alınmışdır. Süni mayalanmadan alınan balaların sayı əvvəlki ildən 101 baş və ya 4,6 faiz azdır.

# Daha bir məmur biznesinin gizli üzü

## Vətəndaşların həm canına, həm cibinə susayanlar kimlərdir? - Şok təfərrüatlar...

***Çoxsaylı fəsadlarından danışılmasına baxmayaraq Azərbaycanda enerji içkilərinin təbliğatı, reklamı və satışı hər gün daha geniş vüsət almaqdadır. Üstəlik, bu bazarda ciddi şəkildə başıpozuqluq hökm sürdüyü diqqətdən yayınmır.***

Elə sonuncu məqamdan başlayaq. Hətta Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi (AQTA) tərəfindən aparılan yoxlamalar da göstərir ki, hazırda enerji içkilərinin istehsalı və satışı sahəsində:

1) bəzi istehsalçıların satışa çıxardıqları enerji içkiləri əslində alkoqolsuz sərinləşdirici içkilərdir və enerji içkisi deyil;
2) alkoqolsuz sərinləşdirici içkilər enerji içkiləri adlı bölmədə yerləşdirilir və bununla da istehlakçılar çaşdırılır, aldadılır
3) ticarət nöqtələrində enerji içkisi olmayan içkilərin qiymət kağızının üzərində məhsul enerji içkisi kimi təqdim edilir;
4) etiket məlumatları və markalanmada qanunvericiliyin tələblərinə əməl olunmur və s.



AQTA-nın yoxlamaları zamanı bu cür faktların aşkarlanmasına, qanunsuzluğa yol verən istehsal müəssisələrinin və satış nöqtələrinin dəfələrlə cəzalandırılmasına baxmayaraq oxşar halların davam etdiyi iddia edilir. İstehsalçı şirkətlərin bu cəsarəti hardan aldığı naməlumdur. Lakin mediada müxtəlif vaxtlarda yer alan məlumatlarda onların ayrı-ayrı məmurların birbaşa, yaxud dolayı nəzarətində, himayəsində olduğu bildirilib. Elə insan sağlamlığı üçün ciddi fəsadlara yol açdığı deyilən enerji içkilərinin reklam və satışının misli görünməmiş dərəcədə vüsət almasında da bu bazarda pay sahibi olan məmur maraqlarının həlledici rol oynadığı vurğulanmaqdadır.

Xatırladaq ki, enerji tərkibində kofein, taurin, vitaminlər, bitki mənşəli əlavələr, şəkər, yaxud digər dadlandırıcı maddələr olan, çəki itkisinə səbəb olan, dözümlülük, fiziki gücü və diqqəti gücləndirən içki kimi reklam edilir.

Enerji içkilərinin istehsalında istifadə olunan kofein, şəkər, taurin, quarana kimi maddələr, rəngləyici qida əlavələri günlük normadan artıq qəbul edildiyi halda insan sağlamlığına müəyyən fəsadlar törədə bilər.

Kofein qida sənayesində çox istifadə olunan psixoaktiv maddədir və reseptsiz olaraq satılır. Kofein, fiziki olaraq ürək ağrıları riskini artırır, skelet əzələlərini stimullaşdırır, insulin həssaslığını azaldır. İnsan orqanizmi kofeinin müəyyən ölçüdə qəbul edilməsinə tolerantdır, ancaq böyük həcmdə enerji içkisi kimi qəbul edilməsi daha ciddi fəsadlara, qıcolmalara, maniya, insult və qəfil ölümə səbəb ola bilər. Sağlam, yetkin insanların gün ərzində 400 mq kofein istifadə etməyi təhlükəsiz sayılır. Kəskin klinik toksik təsir 1 qrdan başlayır, 5-10 qr arasında isə istifadə ölüm hallarına gətirib çıxara bilər. Ancaq Avstraliyada tərkibində 320 mq-dan çox kofein miqdarı olan 5 enerji içkisi qadağan olunub. ABŞ-da enerji içkilərinin tərkibindəki kofein miqdarının 200 mq-dan az olması daha təhlükəsiz sayılır. Gün ərzində enerji içkisinin normadan artıq qəbulu orqanizmdə kofein miqdarını artırması səbəbindən təhlükəli ola bilər.

Yeri gəlmişkən, enerji içkilərin hamilə qadınlar və uşaqlar tərəfindən qəbul edilməsi qadağandır. Həmçinin enerji içkiləri spirtli içkilərlə birlikdə qəbul edilərsə, zəhərlənmə təhlükəsi doğurur.

Enerji içkilərinin tərkibindəki şəkər tez bir zamanda qanla təmasa girir, oksidləşmə prosesində iştirak edir, əzələləri, beyni və digər həyati əhəmiyyət daşıyan orqanları enerji ilə təmin edir. Artıq dozada qəbul edildikdə qanda təzyiqin qəfildən qalxmasını və ya qanda şəkərin səviyyəsinin artmasına, yüksək qan təzyiqi və qanda şəkərin artması isə əsəbilik, yuxusuzluq kimi hallara gətirib çıxara bilər.

Artıq bir sıra ölkələr enerji içkiləri ilə bağlı ciddi addımlar atmaqdadır. Məsələn, Almaniya enerji içkilərinin yaratdığı mümkün fəsadları 2002-ci ildən izləyir. Hesabatın nəticələrinə görə, qaraciyərin zədələnməsi, böyrək çatışmazlığı, tənəffüs pozğunluğu, psixi gərginlik, ruhi sarsıntı, taxikardiya, ürək disritmiyası, yüksək təzyiq, ürək çatışmazlığı və ölüm daxildir. İrlandiyanın Toksikologiya Mərkəzinin verdiyi məlumata görə isə 1999-2005-ci illər ərzində enerji içkilərinin istifadəsi taxikardiya, qıcolma və iki ölüm faktı ilə nəticələnib.

Yeni Zelandiya Toksikologiya mərkəzi bu içkilərin törətdiyi fəsadlarla bağlı 2005-2009-cu illər ərzində 20 xoşagəlməz fakt qeydə alıb.

ABŞ Səhiyyə Nazirliyi nəzdində Qida və Dərman Təşkilatının hesabatına görə 2004-2012-ci illərdə ABŞ-da 18 nəfər enerji içkiləri səbəbindən dünyasını dəyişib, 150 nəfər isə ölüm təhlükəsi ilə üzləşib.

Bəzi ölkələrdə enerji içkilərinin satışı, istifadəsi və reklamına qarşı müəyyən tədbirlər də görülüb. Məsələn, İsveçdə uşaqlara bəzi enerji içkilərinin satışı qadağan olunmuş, Macarıstanda isə satışına əlavə vergilər tətbiq olunmuşdur. Norveçdə apteklərdə satışına icazə verilir, Danimarka və Uruqvayda bütün enerji içki növlərinin satışı qadağandır. Avropa Birliyi ölkələrində enerji içkilərinin qutularında “kofein miqdarı” yazısı olmalıdır.

Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi isə 18 yaşına çatmamış yeniyetmələri, hamilə qadınları, süd verən anaları, ürək-damar, psixonevroloji, böyrək və qaraciyər xəstəliklərindən əziyyət çəkən insanları enerji içkilərindən istifadə etməməyə çağırıb.

Sadalananlar bir daha onu göstərir ki, enerji içkiləri bazarında nəzarətin gücləndirilməsi, bu bazardakı özbaşınalıqların aradan qaldırılmasına hesablanmış daha təsirli addımların atılması çox vacibdir. Özü də hansısa məmur maraqlarının olub-olmadığını nəzərə almadan!

***Sənan Mirzə***

# Ucarda ötən il dövlət büdcəsi və ticarət statistikası belə olub

***2023-cü ildə bələdiyyə büdcəsinin gəlirləri əvvəlki ilin eyni dövrü ilə müqayisədə 10,4 faiz artaraq 292,2 min manat təşkil etmişdir. Bu dövrdə büdcədən 269,0 min manat və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 6,8 faiz çox vəsait xərclənib.***

Daxilolmaların 27,7 faizi torpaq vergisi, 16,8 faizi əmlak vergisi 0,2 faizi avtomobil dayanacaqları üçün ödənişlər, 7,7 faizi, əmlakın özgəninkiləşdirilməsindən, 26,2 faizi bələdiyyə əmlakının icarəyə və istifadəyə verilməsindən, 14,5 faizi dövlət büdcəsindən verilən dotasiya, 6,9 faizi digər vergi olmayan daxilolmalar hesabına təmin edilmişdir.

Büdcə vəsaitlərinin 76,6 faizi yerli özünü idarəetmə orqanlarının 4,4 faizi sosial müdafiə və sosial təminat, 2,6 faizi mənzil kommunal təsərrüfatına 0,1 faizi mühitin mühafizəsinə 1,6 faizi nəqliyyat və rabitə, 14,7 faizi digər sahələrin maliyyələşdirilməsinə xərclənmişdir.

Bundan əlavə, 2023-cü ildə pərakəndə ticarət şəbəkələrindən əhaliyə 247225,8 min manatlıq və ya 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə real ifadədə 0,7 faiz çox istehlak malları satılmışdır. 2023-cü ildə pərakəndə ticarət şəbəkəsindən əhaliyə satılmış ərzaq məhsulları, içkilər və tütün məmulatlarının həcmi artaraq 151905,6 min manat, qeyri-ərzaq mallarının həcmi artaraq 95320,2 min manat olmuşdur.

Ticarət dövriyyəsinin həcmində ərzaq məhsulları, içki və tütün məmulatları və qeyri-ərzaq mallarının xüsusi çəkiləri müvafiq olaraq 61,4 və 38,6 faiz təşkil etmişdir. Hesabat dövrünün sonuna pərakəndə ticarət şəbəkələrində mal ehtiyatlarının qalığı 6462,0 min manat o cümlədən hüquqi şəxslər üzrə 1101,3 manat, fərdi sahibkarlar, bazar və yarmarkalar üzrə 5360,7 min manat olmuşdur.

***Ucar Rayon Statistika İdarəsinin baş məsləhətçisi Emin Qəhrəmanov***

## 5.3.7. işğaldan azad olunmuş ərazilərə “Böyük Qayıdış”

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Qarabağ və Zəngəzura Böyük Qayıdış

## İbrahim Mirzəyev: “İndiyədək ümumilikdə işğaldan azad olunmuş ərazilərimizə ümumi - 1360 ailə, 5354 nəfər köçürülüb”

***İşğaldan azad edilmiş torpaqlarımızda bərpa işləri sürətlə davam etdirilir. İllərdir didərgin həyatı yaşayan məcburi köçkünlər artıq öz doğma torpaqlarına geri dönürlər. Artıq işğaldan azad edilmiş ərazilərdə həyat yenidən öz axarına qayıdır. Uşaqlar ata-baba yurdlarında təhsil alır, öz doğma torpaqlarının havasını udaraq, suyunu içərək böyüyürlər. 30 ildən çox doğma yurd həsrəti ilə yaşayanların bu nisgili sona çatır. Onlar mərhələ-mərhələ doğma torpaqlarına geri qayıdırlar.***



Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin mətbuat katibi İbrahim Mirzəyevin “Unikal” qəzetinə verdiyi məlumata görə, Böyük Qayıdış çərçivəsində işğaldan azad edilmiş ərazilərə 5354 nəfər, 1360 ailə köçürülüb. “Füzuli şəhərinə 527 ailə, 1969 nəfər, Laçın şəhərinə - 431 ailə, 1627 nəfər, Ağalı kəndinə - 175 ailə, 871 nəfər, Talış kəndinə - 20 ailə, 90 nəfər, Zabux kəndinə - 207 ailə, 797 nəfər köçürülüb. İndiyədək ümumilikdə işğaldan azad olunmuş ərazilərimizə ümumi - 1360 ailə, 5354 nəfər köçürülüb. İ. Mirzəyev bu prosesin davam etdirildiyini, işğaldan azad olunmuş ərazilərimizdə bərpa-quruculuq işlərinin sürətlə davam etdiyini söyləyib. Bildirib ki, kənd və qəsəbələr quruldupca,şəhərlərdə yaşayış binaları, infrastruktur hazır olduqca köçürmə prosesi də davam etdirilir.

İ. Mirzəyev bildirib ki, düşmənin soyqrıma məruz qoyduğu xocalılar da,yaxın vaxtlarda öz yurdlarına geri dönəcəklər. Belə ki, Xocalı şəhərində 167 hektar ərazidə 113 evin bərpasına başlanıb. Həmin evlərdən 50-si bu ilin yazında doğma yurduna qayıdacaq sakinlərin ixtiyarına veriləcək. Hazırda Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi tərəfindən xüsusi nömrələnmiş 113 evin hamısında bərpa və yenidənqurma işləri aparılır. Xocalıya köç prosesi sürətləndikcə ərazidə tikilən 200-ə yaxın həyət evi mərhələli şəkildə məskunlaşma üçün təhvil veriləcək. Eyni zamanda biri beşmərtəbəli, digərləri 2-3 mərtəbəli olmaqla ümumilikdə 110 mənzilli binalar da Xocalı sakinləri üçün yenidən qurulur. Bundan başqa, hazırda 18 hektar ərazidə “fin evləri” adlanan sahədə 92 kottec tipli evlər yenidən qurulur ki, burada da təmir işləri başa çatmaq üzrədir. Yenidən qurulan Xocalı müasir şəhər kimi yenidən qurularaq işğala qədər burada yaşamış keçmiş məcburi köçkünlərin ixtiyarına veriləcək. Burada həmçinin geniş ərazisi olan park salınır. Hazırda əsas bərpa və yenidənqurma işləri Xocalının mərkəzindən keçən magistral yolun ətrafında gedir. Laçında olduğu kimi Xocalıda da çaykənarı ərazilərdə bulvar salınır və ətraf zonalar gəzinti-istirahət mərkəzinə çevriləcək. Burada həmçinin kiçik iaşə obyektlərinin tikintisi də nəzərdə tutulub.

Qeyd edək ki, işğaldan azad edilmiş ərazilərimizin bərpası bu gün dövlətin prioritet məsələsidir. Fevralın 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Milli Məclisdə andiçmə mərasimində Böyük Qayıdış məsələsinə də toxunub. Prezident bildirib ki, dövlət büdcəmizdə bu gün də ən böyük xərclər hərbi xərclərdir və hərbi xərclərlə bərabər, Qarabağ və Şərqi Zəngəzurun bərpasıdır.

“Deyə bilərəm ki, burada görülən işlər azad edilmiş torpaqlara gələn hər bir qərəzsiz xarici qonağı valeh edir. Çünki bu dərəcədə dağıntılardan sonra bu sürətlə bərpa işlərinin aparılması, yəqin ki, tarixdə görünməmiş bir hadisədir. Onu da nəzərə almalıyıq ki, mənfur düşmən bizim ərazilərimizi minalayıb və 300-dən çox insan artıq həyatını, ya da ki, öz sağlamlığını itirib. Əfsuslar olsun ki, biz hər həftə belə ağır xəbərləri eşidirik. Minalardan təmizləmə prosesi gedir, 120 min hektar artıq təmizlənib, amma minalanmış ərazi qat-qat daha genişdir. Bütün bunlara baxmayaraq, keçmiş köçkünlərin öz dədə-baba torpaqlarına qaytarılması prosesi uğurla gedir. Bu günə qədər təxminən 5400 keçmiş köçkün artıq beş yaşayış məntəqəsinə göndərilib, orada yerləşdirilib və bu il ən azı 20 yaşayış məntəqəsinə keçmiş köçkünlər qayıdacaq. Bizim planımız azad edilmiş torpaqlarda ilin sonuna qədər 5 şəhərə və 15 kəndə 20 min keçmiş köçkünü yerləşdirməkdir. Yüzdən çox şəhərin və kəndin baş planları hazırlanıb, təsdiqlənib. Bir çox şəhər və kəndlərdə artıq inşaat işləri başlamışdır. Biz Böyük Qayıdış proqramının birinci mərhələsini 2026-cı ilin sonunda başa çatdıracağıq və o vaxt 140 min köçkün öz dədə-baba torpaqlarına qayıdacaq. Bununla paralel olaraq, bütün sosial infrastruktur inşa edilir, xəstəxanalar, məktəblər, idman obyektləri, infrastruktur obyektləri, yollar, 130-dan çox tunel və körpü, - 40 tunel və 90 körpü, - inşa edilir. Yəni, bu, sadəcə olaraq işin miqyasını göstərir, bütün elektrik təsərrüfatı yenidən qurulub, dəmir yolları çəkilir, iki beynəlxalq hava limanı açılıb, üçüncüsü də Laçında açılacaq. Yəni, geniş quruculuq işləri görüləcək. Əlbəttə ki, köçkünlər üçün yeni evlər, bütün müasir şəhərsalma qaydalarına uyğun olan yaşayış yerləri qurulacaq və tarixi şəhərlərimizin tarixi siması bərpa ediləcək” deyə, prezident vurğulayıb.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**

## Bakı Beynəlxalq Avtovağzal Kompleksinə sözçü təyin edildi



***Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin (AYNA) tabeliyindəki Bakı Beynəlxalq Avtovağzal Kompleksinin ictimaiyyətlə əlaqələr şöbəsinə yeni müdir təyin olunub.***

“Unikal” xəbər verir ki, bu vəzifə Rövşən Əliyevə həvalə edilib. O, bundan əvvəl ”Azərbaycan Televiziya və Radio Verilişləri” QSC-nin (AzTV) əməkdaşı olub və yeni vəzifəsində Sabir Bilalovu əvəz edib.

## “Google”nin Azərbaycandakı bazar payı azaldı

***Ötən ilin əvvəli ilə müqayisədə dekabrda “Google”un Azərbaycandakı bazar payı 94.94 faizdən 91.94 faizədək azalıb.***

Ötən ilin əvvəli ilə müqayisədə dekabrda “Yandex”in Azərbaycanda bazar payı 3.98 faizdən 6.23 %-dək artıb. Qeyd olunan dövrdə süni intellektə bağlı olan “Bing” axtarış motorunun Azərbaycanda bazar payı 0.59 %-dən 0.87 faizədək artıb. Ötən ilin əvvəli ilə müqayisədə digər axtarış motorları olan “DuckDuckGo”nun ölkə üzrə bazar payı 0.13 %-dən 0.15%-dək artıb.

“Petal Search“ axtarış motorunun ölkə üzrə bazar payı 0.02 faiz olub.

## Nəqliyyat və rabitənin inkişafı, əhaliyə xidmət statistikası

***2023-cü ildə nəqliyyat sektorunda fəaliyyət göstərən müəssisələr və fərdi sahibkarlar tərəfindən əhaliyə 4217,0 min manatlıq xidmət göstərilmiş və 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə 10,3 faiz az olub.***

Avtomobil nəqliyyatı ilə 2023-cü ildə 5737 min nəfər sərnişin, 1284 min ton yük daşınmış və 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə sərnişin dövriyyəsi 18,7 faiz, yük dövriyyəsi 9,0 faiz artmışdır.

2023-cü ildə nəqliyyat sektorunda məhsul buraxılışı (fiziki şəxslər üzrə cəmi) 3458,4 min manat olmuş, o cümlədən yük daşınması üzrə 457,5 min manat, sərnişin daşınması üzrə isə 3000,9 min manat təşkil etmişdir. 2022-ci ilin eyni dövrü ilə müqayisədə cəmi məhsul buraxılışı 7,3 faiz, o cümlədən sərnişin daşınması üzrə 3,5 faiz, yük daşınması üzrə isə 7,9 faiz çox olmuşdur.

2023-cü ildə informasiya və rabitə sektorunda təsərrüfat subyektlərinə və əhaliyə 689,0 min manatlıq xidmət göstərilmiş, bu da 2022-ci ilin eyni dövrü ilə müqayisədə 3,5 faiz və ya 25,3 min manat az olmuşdur.

Bundan əlavə, 2023-cü ildə əhaliyə göstərilən ödənişli xidmətlərin dəyəri müqayisəli qiymətlərlə 2022-ci ilə nisbətən 5,4 faiz artaraq 37471,8 min manat təşkil etmişdir, hüquqi şəxslər tərəfindən əhaliyə 9218,1 min manat, hüquqi şəxs yaratmadan fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 28253,7 min manat xidmətlər göstərilmiş, bu da müvafiq olaraq xidmətlərin ümumi həcminin 24,6 və 75,4 faizini təşkil etmişdir.

2023-cü ildə ictimai iaşə dövriyyəsi 2022-ci illə müqayisədə real ifadədə 7,3 faiz artaraq 6332,0 min manat olmuşdur. Özəl sektorda göstərilən iaşə xidmətlərinin 23,9 faizi hüquqi şəxs statuslu müəssisələrin, 76,1 faizi isə hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fərdi sahibkarların iaşə fəaliyyəti nəticəsində formalaşmışdır.

***Ucar Rayon statistika İdarəsinin aparıcı məsləhətçisi Cəlil Vəliməmmədov***

06_27 IYUI-QARA.qxd 2/15/2024 10:34 PM Page 13





## 2023-cü ildə Yevlax Şəhəri üzrə "Kənd təsərrüfatı ilə bağlı ümumi məlumat"

***2023-cü ilin məhsulu üçün payızlıq və yazlıq bitkilərin əkin sahəsi 36372,81 hektar və ya 2022-ci ilə nisbətən 4,4 faiz çox payızlıq və yazlıq bitkilər əkilmişdir. Keçən il bu göstərici 34830,7 hektar olub.***

2023-cü ilin məhsulu üçün payızlıq və yazlıq bitkilərin əkin sahəsi 36372,81 hektar və ya 2022-ci illə müqayisədə 1542,11 hektar çox payızlıq və yazlıq bitkilər əkilib. 2023-cü ilin məhsulu üçün 8607,73 hektar sahədə payızlıq buğda, 6887,08 sahədə isə arpa səpini aparılıb. Əvvəlki illə müqayisədə 1460,73 hektar çox buğda, 1027,08 hektar çox arpa səpini aparılıb.

2023-cü ildə 339,3 hektar qarğıdalı, 510,0 hektar günəbaxan, 35,0 hektar çəltik, 142,3 hektar kartof, 566,0 hektar tərəvəz, 225,0 hektar bostan, 16600,0 hektar çoxillik yem bitkiləri, 3,0 hektar noxud, 28,0 hektar darı, 1888,3 hektar pambıq, 43,3 hektar lobya, 110,7 hektar soya və 386,8 hektar şəkər çuğunduru olmaqla yazlıq bitkiləri əkilib.

2022-ci ilə nisbətən 167,4 hektar qarğıdalı, 6,0 hektar günəbaxan, 4,8 hektar kartof, 32,3 hektar tərəvəz, 3,5 hektar bostan, 3,0 hektar darı, 8,7 hektar lobya, 27,0 hektar çəltik, 20,0 hektar yem bitkiləri çox əkilmişdir. 2022-ci ilə nisbətən 813,9 hektar pambıq, 406,4 hektar şəkər çuğunduru 1,6 hektar soya az əkilmişdir.

2023-cü ilin məhsulu üçün əkin sahələrindən 32020,7 ton buğda, 20661,4 ton arpa, 1568,2 ton kartof, 6470,7 ton tərəvəz, 2962,5 ton bostan, 12061,2 ton meyvə, 346,9 ton giləmeyvə, 255676,0 ton yonca otu, 303,6 ton darı, 7,1 ton noxud, 113,0 ton lobya, 108,8 ton çəltik, 5183,6 ton dən üçün qarğıdalı, 6755,85 ton pambıq, 15018,8 ton şəkər çuğunduru, 84,0 ton soya, 1369,2 ton günəbaxan, 1847,8 ton üzüm istehsal olunmuşdur ki, bu da 2022-ci ilə nisbətən 5719,7 ton buğda, 3257,2 ton arpa, 8,4 ton bostan, 48,8 ton kartof, 283,8 ton yonca otu, 32,7 ton meyvə, 0,4 ton giləmeyvə, 72,3 ton üzüm, 84,0 ton çəltik, 144,2 ton günəbaxan, 38,8 ton darı, 23,4 ton lobya, 3247,7 ton şəkər çuğunduru, 0,2 ton noxud çox, 4752,2 ton qarğıdalı, 1815,95 ton pambıq, 1606,9 ton tərəvəz, 1,6 ton soya isə az tədarük olunub.

2023-cü ildə barama tədarükü 9650,0 kq olmuşdur ki, bu da 2022-ci ilə nisbətən 165,8 faiz və ya 3831,6 kq çox tədarük olub. 2022-ci ildə barama tədarükü 5818,4 kq olub. 2023-cü ildə ət istehsalı (diri çəkidə) 9308,5 ton, süd istehsalı 38192,9 ton, yumurta istehsalı 18233 min ədəd, yun isə 357,6 ton olmuş və əvvəlki il ilə müqayisədə ət istehsalı 170,1 ton , süd istehsalı 130,5 ton, yumurta istehsalı 51 min ədəd, yun isə 15,6 ton artmışdır. 01.01.2024-cü il vəziyyətində 78756 baş mal-qara, o cümlədən 32310 baş inək və camışlar, 184313 baş qoyun və keçi, 456870 baş quş olub.

***Yevlax Şəhər Statistika İdarəsinin rəisi Saleh Cəfərov***

# Qəbul imtahanlarının vaxtı açıqlandı

***Dövlət İmtahan Mərkəzi bu keçirilməsi nəzərdə tutulan ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə qəbul imtahanları, sənəd qəbulu tarixləri, magistraturaya qəbul imtahanının II cəhdi, rezidenturaya qəbul, dövlət qulluğuna qəbul, eləcə də digər imtahan və tədbirlərin tarixlərini açıqlayıb.***

DİM-dən "Unikal"a verilən məlumata görə, ali təhsil müəssisələrinə qəbul imtahanlarının birinci cəhdi II və III ixtisas qrupları üzrə mayın 26-da, I və IV ixtisas qrupları üzrə iyunun 2-də keçiriləcək.

Ali təhsil müəssisələrinə tələbə qəbulu ilə bağlı ərizələrin qəbulu ötən il olduğu kimi, bu il də iki mərhələdə (V ixtisas qrupu üzrə müsabiqədə iştirak etmək istəyən abituriyentlər üçün bir mərhələdə) olmaqla internet vasitəsilə aparılacaq. Ərizə qəbulunun birinci mərhələsi martın 1-dən 15-dək həyata keçiriləcək.

Ərizə qəbulunun 2-ci mərhələsi, yəni I, II, III və IV ixtisas qrupları üzrə qəbul imtahanının II mərhələsinin 1-ci cəhdində iştirak etmək istəyənlər aprelin 15-dən mayın 6-dək imtahan vermək istədikləri ixtisas qrupunu seçərək qeydiyyatdan keçəcəklər. I, II, III və IV ixtisas qrupları üzrə qəbul imtahanının II mərhələsinin 2-ci cəhdində iştirak etmək üçün qeydiyyat isə mayın 31-dən iyunun 17-dək olan müddətdə aparılacaq.

II və III ixtisas qrupları üzrə qəbul imtahanların ikinci cəhdi iyulun 7-də, I və IV ixtisas qrupları üzrə iyulun 14-də keçiriləcək.



Ali təhsil müəssisələrinin magistraturalarına qəbul imtahanının ikinci cəhdi aprelin 28-də, rezidenturaya qəbulun birinci mərhələsinin birinci cəhdi mayın 5-də, ikinci cəhdi iyunun 9-da, imtahanın ikinci mərhələsi isə avqustun 4-də keçiriləcək.

Digər imtahanların tarixləri və tədbirlərin qrafiki ilə verilən CƏDVƏLDƏ* ətraflı tanış ola bilərsiniz. Cədvəl il ərzində DİM-in saytının baş səhifəsində aktiv olacaq. Qrafik Mərkəzin saytının "Təqvim" bölməsinə də əlavə edilib. Axtarış sistemində sizə lazım olan fəaliyyət istiqaməti və tədbiri seçməklə, ayrıca həmin istiqamətə aid imtahanlar və qeydiyyat tarixlərini əldə edə bilərsiniz.

Xatırladaq ki, buraxılış imtahanları, əvvəlki illərin məzunları üçün qəbul imtahanının birinci mərhələsi, Azərbaycan dili (dövlət dili kimi) və s. imtahanların tarixləri əvvəlcədən elan olunmuşdur. 11-ci sinif buraxılış imtahanları üzrə Gəncə şəhərində yerləşən məktəblərin imtahan günləri də siyahı şəklində (Gəncə - 1, Gəncə - 2) cədvəlin buraxılış imtahanları bölməsinə əlavə olunub.

İmtahan və tədbirlərin qrafikində hər hansı dəyişiklik olsa, bununla bağlı ictimaiyyətə əvvəlcədən məlumat veriləcək.

# Qarabağı kamına çatdıran Kamran

***Varlıq nə deməkdir? Nəfəsmi almaqdır, ya ölənə qədər yaşadığımız müddətdir? Yoxsa biz öləndən sonra da mı yaradacağımız səbəblərdir? Biz dünyaya ilk göz açdığımız andan bizi var edəcək səbəblər də bizdən xəbərsiz bizimlə var olur. Böyük əllərdə kiçik bədənlərimiz əldən-ələ keçərkən heç kimin ağlına belə gəlmir ki, indi əlimizdə, ovuclarımızda olan bu körpə bədənin köksündə necə bir ürək döyünəcək..***

Hamı üçün simvolik mənası olan 14 fevral, 1996-cı ilin bu günü Fərəcovlar ailəsi üçün sonsuz, ucsuz-bucaqsız dünyaya sığmayacaqları tarix oldu. Bu gün çoxumuzun yanından, eyni səma altında eyni nəfəsi aldığımız, eyni soyuğu və istini hiss etdiyimiz, hətta bəlkə də bir-birimizi tanımadan, ötüb-keçdiyimiz Kamran Fərəcov dünyaya göz açdı..

O gözlər ki 24 ildən sonra əbədi olaraq yumulacaq.

O ürək ki özünü bildən Vətən üçün döyünüb, Vətən üçün dayanacaq.

O can ki işğal tarixi yaşından böyük olan amma heç vaxt görmədiyi, böyüməmdiyi torpaqlar üçün qurban veriləcək.

Kim bilə bilərdi? Sən mi? Mən mi? İlqar atamı? Reyhan anamı? 3 bacısımı? Yoxsa yarı Fidan xanımmı? Heç birimiz..



Vətənə ana deməyin bədəli onun qoynuna girə bilməyi də hünər etmək idi təbii..

Deyirlər, valideyni ölənə yetim, yoldaşı ölənə dul, amma övladı ölənə nə deyərlər bilməzlərmiş..

II Qarabağ müharibəsində neçə belə hekayələr yazıldı. O hekayələrin qəhrəmanlarından biri Daxili Qoşunların Xüsusi Təyinatlı Dəstəsinin üzvü, snayper, baş əsgər,şəhid Kamran Fərəcov İlqar oğludur. Müharibəyə qatıldığını ailəsinə bildirmədi. Amma qatıldığını başqa formada ailəsinin qarşısına çıxaraq bildirdi. Ayaqda yox, al bayraqla.. Tabutundakı al bayraq üstünə kəfən olana qədər o, Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan, Hadrut və Şuşada şanlı Azərbaycan bayrağının dalğalanması üçün bütün varlığı ilə döyüşdü. Snayper olduğu üçün sərrastlıqla neçə ermənini Vətən torpaqlarından birdəfəlik sildi.

Əzmlə, qətiyyətlə və dəqiqliklə!

Bir tərəfdən ermənini məhv edən Kamran, digər tərəfdən "birdən Kamrana nəsə olar" qorxusunu sevdiklərinin canına keçirtdi. Bacılarını arxasız, valideynlərini qol-qanadsız, yoldaşı Fidan xanımı isə daim qanayacaq yarayla baş-başa buraxdı. Fidan xanım ailə həyatı qurandan sonra itirmiş atasını, ailəsini Kamranda tapmışdı. İndi isə Kamran gedişi ilə Fidan xanıma bir ailə, Fidan xanımı isə ailəsinə nişanə qoyub getdi, bu dünyadan.

Bu dünyadan ailəsinə, bacılarına dayaq olan, yoldaşı Fidan xanıma dünya olan bir Kamran keçdi...

24 yaşında, oktyabrın 24-də, Xocalıda, qəhrəmancasına..

***Nuray Rəşid Abdulla***

06_27 IYUl-QARA.qxd 2/15/2024 10:34 PM Page 14



# Dairə boyunca...

***Dahi Fellininin “Roma” filmində özgə hava axınının daxil olması ilə yer qatının dərinliyində aşkarlanan, əsrlərlə rəng çalarları dəyişməyən qədim freskalar qəfil göz görə-görə korlanmağa, yoxa çıxmağa başlayır. Sənət nümunəsinin bir anın içində insan gözü qarşısında sovrulub getməsini izləyən qadın, müşahidəçi həmkarlarının etinasızlığına rəğmən çarəsizcəsinə: “Bu dəhşətdir! Nəsə etmək lazımdır! Onları xilas etmək lazımdır!” - deyə çağırış edir. Lakin artıq gecdir. Divarlardakı əlvan sənət nümunələrindən yerdə qalan yalnız solğun cizgilərdir...***

Azərbaycan kinosu təxminən bu haldadır. Tarixi qorunsa da, bu gününü ayaqda saxlayan divarlar ildən-ilə kərpic-kərpic uçulub tökülür. Tez-tez yenilənən hava axını yanlış ahəngdə olduğundan hər dəfəsində onun mövcud dayaqlarından nəyisə silib aparır. Nəticədə kino sahəsində illərlə yaranmış boşluqlar dərinləşir, problemlər artaraq bir-birindən törəyir.

Milli kino sənətimiz öz keçmişinin böyük tarixi dövrünü şura ittifaqının idarəetməsi altında yaşayarkən belə xalqımızın mənəviyyatına, düşüncəsinə öz töhfəsini vermiş, bu gün də aktuallığını itirməyən sənət nümunələri yaratmışdı. Bu illər ərzində ittifaq kinostudiyaları və onların istehsal etdiyi filmlər bir-birilə davamlı yarış və rəqabət mühitində hesablaşırdılar. Belə qarşılıqlı təmaslar həm təcrübə mübadilələrinə, həm də fərdi inkişafa zəmin yaradırdı. Sovet İttifaqının dağılması 70 il ərzində formalaşmış, kök atmış istehsalat və yaradıcılıq modelinin də qəfil çöküşünə gətirib çıxardı. Nəticədə dünya miqyasına açılmağa hazır olmayan studiyalar ideoloji yanaşmanı, idarəetmə formalarını itirdi. İdeoloji dedikdə, yalnız sovet təbliğat maşınını, kommunizmin mədhini nəzərdə tutmur, başlıca olaraq, peşəyə yanaşma və idarəetmə forma-vərdişlərinin pozulmasına, səngiməsinə diqqət çəkirik.

Böhranlı 1990-cı illərdə özəl studiyaların və dövlətdənkənar maliyyənin meydana çıxardığı filmlər arasında həm uğurlu, həm də bayağı ekran işləri ərsəyə gəldi. Bu bayağılıq yaradıcılıq mühitinin buxovlardan azad olub əlçatanlıq məqamına yetişməsinin mənfi tərəfindən xəbər verirdi. Uğurlu nümunələr isə, əsasən, daha peşəkar nəslin sənət yolunun davamı kimi ortaya çıxır, onların çoxdan arzuladığı azad yaradıcılıq şəraitində fərqli ekran nümunələri ərsəyə gətirməsinə səbəb olurdu. Lakin sonralar ekran sənəti meydanı özünün faciəvi boşluq dövrünə qədəm qoymağa istiqamətləndi. Kino istehsalında filmlərin dövlət sifarişi prinsipi əsasında yaradılması ana xətt kimi götürülərkən dünyəvi meyarlar nəzərə alınmadığına görə bir neçə il sonra həmin dayaqlar sarsıldı, kino istehsalına məsul şəxslərin başları üzərində maliyyə yükünün amansız hökmü hiss olunmağa başladı. Keçmiş modelin gərəkli məqamlarına ehtiyac duyulması yenidən oxşar idarəetmə formasına üz tutulmasını qaçılmaz etdi. Lakin ilk təsisatdakı mühitlə müqayisədə yeni yaranmış qurumun fəaliyyətə başladığı gündən çətin durumda olan kinonu və onun illərlə üst-üstə qalaqlanmış problemlərini təbii olaraq, yerdən qaldıracaq gücə malik olmaması, az qala hər şeyi sıfırdan başlamaq zərurəti, işlək mexanizmlərin mövcudluğundan uzun müddət ötməsi, kino xadimlərinin peşəsi ilə məşğul olmaq imkanından uzaq düşməsi, istehsal dayanıqlığında və nəsillər arasında zəncirin qırılması problemlərin birə-beş artmasına səbəb olmuşdu.

Bəlli həqiqətdir ki, yaradıcı insanları müdafiə edib əl üstündə gəzdirməyən idarəetmə mühiti kinonun gələcəyini məhvə aparır. Peşəkar kinematoqrafçıların yaşlanması, həyatdan köçməsi, potensiallı gənc və orta nəsil nümayəndələrinin ya telekanallarda baş girələməyə məcbur qalması, ya bir layihəsini öz hesabına reallaşdırıb gücü çatmadığından beşini əldən verməsi, ya da öz məhsuldar illərini praktik fəaliyyətdən uzaq şəkildə boşuna xərcləməsi, işsizlik və şəraitsizlik mühitində bütün təbəqələri təmsil edən kino ictimaiyyətinin istər-istəməz deyingən kütləyə çevrilməsi bizim bir millət olaraq getdikcə təsvir dili ilə özünüifadə mədəniyyətindən uzaq düşməyimizə səbəb olur. Qısaca və ümumiləşmiş şəkildə desək, vəziyyət rejissor Emil Quliyevin Kino Forumundakı pauzası qədər dramatikdir.

Bəs həyatlarını kinoda keçirmiş peşəkarlarımızın işə başlamasına nə mane olur? Bugünədək əllərində hazır ssenari ilə çəkiliş meydançasında işə başlamağı gözləyən peşəkar rejissorlarımız Elxan Cəfərov son bədii filmini 9 il əvvəl - 2015-ci ildə, Oqtay Mirqasımovla Ayaz Salayev 11 il əvvəl - 2013-cü ildə, Hüseyn Mehdiyev 20 il əvvəl - 2004-cü ildə, Cahangir Mehdiyev 22 il əvvəl - 2002-ci ildə, Əbdül Mahmudov isə hələ sovet dövründə, 34 il əvvəl - 1990-cı ildə çəkib. İnsanın fiziki varlıq olduğunu, ömür məhdudiyyətini nəzərə alsaq, bu kino xadimlərinin təcrübəsindən zamanında yararlanmaq lazımdır. Necə deyərlər, zaman səssiz mişardır, peşəkara-filana baxmır...




Texnoloji inkişafın kinematoqrafiyanı bir sənət sahəsi kimi insanlara daha əlçatan etməsi meydana çıxan kütləvilik mənzərəsində seçim və peşədaxili istiqamətlənmə imkanlarını daha çox aktual edir. Lakin bu məqamlar qarşıya çıxan manelər, qoyulan məhdudiyyətlər fonunda Azərbaycan reallığı ilə tərs mütənasib görünür. Reallıq budur ki, problemlər qalağında istənilən addım ümumi həllə gətirib çıxarmır. Uzun müddət zamanın axarına buraxılaraq aradan qaldırılmayan əngəllər onların çözülməsini də uzunmüddətli edir.

Təəssüflər olsun ki, milli valyutanın devalvasiyasına qədər bu sahədə nisbətən vəsait çoxluğu müşahidə olunan illərdə kino istehsalının yol xəritəsinin hazırlanmasına diqqət ayrılmadı və bu səbəbdən qarşıdakı illərdə müştərək istehsala az qala yeganə çıxış yolu kimi baxmaq məcburiyyəti yarandı. “Yaddaş”, “Mozalan”, “Debüt” kimi hərəsi öz profilində ixtisaslaşmış studiyaların fəaliyyətini dayandırması və fəaliyyətdə olan studiyaların istehsalının məhdudlaşması, müstəqil film çəkməyə çalışan kinematoqrafçıların texniki və maliyyə problemləri, əsəb gərginliyi həddində işləmək məcburiyyəti, çəkiliş icazələri kimi bürokratik əngəllərlə qarşı-qarşıya qalması yeni nəslin praktiki yetişməsi prosesini ləngitməyə başladı. Tamaşaçı zövqünə təcavüz etməkdən başqa heç bir təsir qüvvəsi olmayan ucuz komediya və yeddidən yetmiş yeddiyə bütün obrazlarının qışqırdığı bayağı serial nümunələri boşluq mühitində hakim mövqe tutmağa başladı, tamaşaçı sorğularının birmənalı cavabına, vahid nəticəsinə çevrildi.

Əgər sovet dövründə kino sahəsindəki rəqabət, əsasən, qapalı ittifaq çərçivəsində gedirdisə, bu gün müstəqil Azərbaycan bütün dünya kinosu ilə açıq rəqabətdədir. Yeri gəlmişkən, bu yaxınlarda milli kinomuzun bütün istiqamətlərindəki geriləmə fonunda Ermənistanın 2022-ci ildə dram janrında istehsal etdiyi “Amerikalı” filminin nüfuzlu “Oskar” mükafatına namizəd olması hər kəsin diqqət mərkəzində oldu. Film əsas yarış beşliyinə düşə bilməsə də, yəqin ki, bu faktın göydəndüşmə təsadüf kimi qəbul edilməsinin sadəlövhlük olduğunu hər kəs təsdiq edər.

Son zamanlar müəyyən bir sahəni hərəkətə gətirmək və deyilən fikirlərin əhəmiyyətini çatdırmaq üçün düşmən tərəfin uğurları ilə müqayisə aparmaq az qala qaçılmaz bir ənənəyə çevrilib. Bu mənada rejissor Əli İsa Cabbarovun illərlə müsahibələrində Ermənistanın bu yolda olduğuna dair xəbərdarlıq proqnozu, məqsədlərinə çatanadək onları qabaqlamaq haqqında həyəcan təbili çalması heyif ki, bu illər ərzində heç kəsin diqqətini çəkmədi. Nəticədə, məlum olduğu kimi siyasi arenada məğlub ölkə mədəni sferada məqsədyönlü addımlar ataraq məlum mükafata namizədlərin qısa siyahısına düşə bildi. Əslində sənət adamının, peşəkar sözünün dinlənilmədiyi meydanda bizim üçün belə bir nəticənin ortaya çıxması zərurət idi. Xronoloji reallığa nəzər saldıqda, 2002-ci ildə “Ararat”, 2007-ci ildə “Torağay yuvası”, 2009-cu ildə “Qapalı dairə”, 2014-cü ildə “Çapıq”, 2016-cı ildə “Vəd” filmləri ilə bütün dünyanın diqqətini qondarma soyqırımı mövzusuna yönəltmiş ermənilərin bu işi illər boyu addım-addım gördüyünün şahidi oluruq. Bu filmlərin əksəriyyəti yerli istehsal yox, dünya ölkələrinin çəkdiyi yüksəkbüdcəli ekran əsərləridir. Onlar öz mənafeləri yolunda məhəlli yox, qlobal addımlar atır, bu filmlərdə köçəri rəqsini, balaban sədalarını da eşitdirməkdən çəkinmirlər. Filmlərdən birinin rejissorluğunu dünyaca tanınan türk əsilli məşhur kino xadimi Fatih Akının etməsinə nail olunması isə türklərə, azərbaycanlılara ömürlük baş qaxıncıdır. Dramaturji təsiretmə üsulları ilə bu filmlərin hər birində göstərilən vəhşiliklərin həqiqətə əsaslanması təəssüratı yaradılır. “Torağay yuvası” filminin sonunda ekranda yazılan “erməni xalqı hələ də haqq-ədalət gözləyir” fikirləri tamaşaçının həmin epizodlardan aldığı təəssüratına şüuraltı yekun vurur.

Azərbaycanda 34 il ərzində Qarabağ mövzusunda xeyli film çəkilməsinə baxmayaraq, ölkəmizdə əsaslı prodüser institutunun olmaması həmin ekran əsərlərinin ya lokal xarakter daşımasına, ya da dünya ekranlarında xüsusi əks-səda doğurmadan nümayişinə gətirib çıxardı.

Mövzuya qayıtsaq, yerli əhəmiyyətli problemlərin həlli ön planda olsa da, yaxşı olardı ki, paralel olaraq, yeni qurumun nəzdində Azərbaycan kinosunun xaricdə təmsil olunması üçün bir struktur formalaşdırılsın və bu struktur vasitəsilə, çəkilən hər bir film öz təyinatı üzrə dünya film festivallarına göndərilsin. Bədii, animasiya, yaxud sənədli; özəl istehsal və ya dövlət sifarişli yönündən asılı olmayaraq, hər filmin mövzusuna və yanaşmasına uyğun festival tapmaq mümkündür ki, bu təsnifatı da həmin şöbənin festival komissiyası apara bilər.

Bu məqamda qısaca da olsa, film istehsalı üçün vəsait əlçatmazlığı şəraitində başqa bir mühüm probleme diqqət çəkmək vacibdir. Maliyyə kanallarının kinematoqrafçılara açıq olmaması peşəsi ilə məşğul olmaq və öz ideyalarını həyata keçirmək üçün daim vurnuxan gəncləri kənar maliyyəyə, xarici qrantlara üz tutmağa vadar edir ki, bu da həmin məbləği almaq naminə ya vəsait ayıran mücərrəd mənbənin diktə etdiyi şərtlərin qəbul edilməsinə, ya da heç bir konkret sifariş almamış istər-istəməz daxilən mənbənin maraq dairəsinə meyillənilməsinə gətirib çıxarır. Bu cür hallar bəzən mənəvi cəhətdən fəsadsız ötüşsə də, bəzən cəmiyyətin şüur və təsəvvür dəyişikliklərinə hesablanmış yad dəyərlərin Azərbaycan ekranına ayaq açmasına gətirib çıxara bilər.

Azərbaycan kinosunun yaşadığı çətinliklər mühitində konseptual həll yollarının indiki şəraitdə bacardıqca tez tapılması mühüm və arzuolunandır. Tarixə qayıtsaq, “Azərkinovideo” İstehsalat Birliyinin fəaliyyət göstərdiyi, kinonun böhran vəziyyətində olduğu dövrdə milli kinonun dövlət və şəxsi sektorda paralel inkişafını nəzərdə tutan inkişaf konsepsiyasının hazırlanması, “Kino-Bank” və onun nəzdində kino inkişaf fondunun yaradılması, Ali Kino Məktəbinin açılması ideyaları səslənmişdi. Kinorejissor Hüseyn Mehdiyevin “Azərkinovideo”nun baş direktor müavini kimi 30 il əvvəl dediyi bir çox fikirlərə nəzər saldıqda situasiya və problemlərin eyni olduğunun fərqinə varırıq. Belə ki, kino sistemində qayda-qanun yaradılması, dövlət sektorunun kinonun məhv olmamasına təminat verməsi və minimum ehtiyaclara kömək etməsi, rəqabət mühiti sayəsində özəl sektorun tədricən üstün mövqeyə çatması, kinostudiya ərazisində fəaliyyət göstərən şəxsi kommersiya obyektlərindən buranın maliyyə vəziyyətinin düzəldilməsi yönündə istifadə olunması, Təhsil Nazirliyinin iştirakı ilə kadr hazırlığına xüsusi diqqət yetirilməsi o dövrdə vurğulanan və hazırkı durumla səsləşən oxşar məqamlardır.

Buradan bəlli olur ki, biz kino sənayesində yaxşı və ya pis - otuz illik bir dairə cızıb yenidən 1993-cü ilin reallığına qayıtmışıq. Bu mənada yeni qurumun öhdəsinə ikinci dəfə dairə boyunca hərlənmədən artıq irəli aparan oxu tapmaq və o yolda inamla addımlamaq düşür. Bu işdə hazırkı məqalənin faydalı olacağına inanırıq.

***Babək Abbaszadə***

06_27 IYUI-QARA.qxd 2/15/2024 10:34 PM Page 15



# Türkiyədə FETÖ-yə qarşı əməliyyat - Saxlanılanlar var



***Türkiyədə FETÖ-yə qarşı keçirilən "Kıskaç-6" əməliyyatlarında 42 şübhəli saxlanılıb.***

"Unikal" xəbər verir ki, bu barədə Türkiyənin daxili işlər naziri Ali Yerlikaya açıqlama verib. Açıqlamada 14 vilayətdə FETÖ-yə qarşı eyni vaxtda həyata keçirilən "Kıskaç-6" əməliyyatlarında 42 şübhəlinin ələ keçirildiyi qeyd olunub.

Əməliyyatlar nəticəsində saxta şəxsiyyət vəsiqələri və rəqəmsal materiallar ələ keçirilib.

***Zərifə Nağıyeva***

# Prezident Gürcüstanı öz iqamətgahının arxa bağçası hesab edir - Papuaşvili



***"Prezident Gürcüstanı öz iqamətgahının arxa bağçası hesab edir".***

Bunu ölkə parlamentinin spikeri Şalva Papuaşvili bildirib.

Spiker prezident Salome Zurabişvilinin hökumət administrasiyasından razılıq almadan Münhen Təhlükəsizlik Konfransında iştirakını belə şərh edib.

"O, Gürcüstanı orada təmsil etmir. Fərdi şəxs kimi orada olması bir daha göstərir ki, onu Gürcüstan Konstitusiyası, gürcü xalqı maraqlandırmır. O, Gürcüstanı öz iqamətgahının arxa bağçası hesab edir, burada özünü istədiyi kimi apara bilər", - Papuaşvili iddia edib.

# Rusiyanın Ukraynadakı itkiləri 400 minə çatır



***Rusiya qüvvələri son sutkada Ukrayna ərazisində daha 950 hərbçisini itirib.***

"Unian"a istinadən xəbər verir ki, bu barədə Ukrayna Silahlı Qüvvələrinin Baş Qərargahı məlumat yayıb.

Bildirilib ki, bununla da Rusiya tərəfinin müharibə başlayandan bəri ümumi itkilərinin sayı 399 090 nəfərə çatıb.

Həmçinin son sutka ərzində Rusiyaya məxsus 9 tank, 47 zirehli döyüş maşını, 54 artilleriya sistemi Ukrayna ordusu tərəfindən sıradan çıxarılıb.

Xatırladaq ki, 2022-ci ilin 24 fevralında Rusiyanın Ukraynaya hücumu nəticəsində başlayan müharibə davam edir. Rusiya Ukraynanın Xerson və Zaporojye vilayətlərini, habelə qondarma "Donetsk XR" və "Luqansk XR" separatçı qurumlarını birtərəfli qaydada ilhaq etdiyini açıqlayıb. Krım isə 2014-cü ildə ilhaq olunub.

# Ermənistanda dünən istefa verən nazirin ofisində axtarış aparılır

***Dünən istefa verən Ermənistanın iqtisadiyyat naziri Vaan Kerobyanın ofisində axtarış aparılır.***

"Unikal" erməni KİV-ə istinadən xəbər verir ki, nazir Milli Təhlükəsizlik Xidmətinə çağırılıb. Daha sonra hüquq-mühafizə orqanlarının əməkdaşları Kerobyanın ofisində axtarışa başlayıblar.

Xatırladaq ki, iki həftə əvvəl iqtisadiyyat nazirinin müavini Ani İspiryan və daha 4 vəzifəli şəxs barəsində cinayət işi başlanmışdı.

Bu gün isə nazirin mətbuat katibi Astqi Sarkisyan da istefa verib.

***Ağarza***

# "Qanunda sülh müqaviləsinə mane olan heç bir müddəa yoxdur" - Paşinyan

***"Sülh müqaviləsi üzrə danışıqlar zamanı Ermənistan və Azərbaycan bir sıra maddələr üzrə razılığa gələ bilibər".***

"Unikal" xəbər verir ki, bunu Ermənistanın Baş naziri Nikol Paşinyan hökumətin növbəti iclasında deyib.

Baş nazir sərhədlərin bərpası üçün 2 yol təklif edib: "Hər iki variant bizim üçün məqbuldur. Biz hətta bu variantla razıyıq: sərhəd xəttini hətta bölgə-bölgə bərpa etmək, sonra bərpa olunan sərhəd xəttinə uyğun olaraq qoşunların yerləşdirilməsini tənzimləmək və növbəti hissəyə keçmək. Növbəti mərhələdə isə eksklav məsələləri. Yəni iki variant var: birincisi, bütün sərhəd boyu demarkasiyanı həyata keçirmək və onun icrasına keçmək, ikincisi, sərhədi hissələrə bölmək və hissə-hissə demarkasiya ilə irəliləmək".



Paşinyan həmçinin qeyd edib ki, tərəflər sülh müqaviləsinin hər hansı müddəasından imtina etmək üçün öz qanunvericiliyində buna istinad edə bilməzlər: "Buna görə də Ermənistan qanunvericiliyində sülh müqaviləsinin həyata keçirilməsinə mane olan heç bir müddəa yoxdur".

Eyni zamanda, Paşinyan ölkəsinin sülh gündəliyinə sadiqliyini vurğulayıb: "Azərbaycan tərəfi Ermənistan-Azərbaycan sərhədinin qeyd olunan hissəsində Azərbaycan Silahlı Qüvvələrinin əsgərinin Ermənistan mühafizəçiləri tərəfindən güllələnərək yaralanması barədə məlumat yayıb. Hərbi polisimiz açıqlama yayıb ki, hadisə ilə bağlı araşdırmalara başlayıblar. Çünki müdafiə nazirinin atəşkəs rejiminin pozulmasına və təxribatlara yol verilməməsi ilə bağlı dəqiq göstərişi var. Ona görə də belə çıxır ki, əmrin pozulması halı varsa, hüquqi nəticələri olacaq".

Qeyd edək ki, fevral ayının 12-də Azərbaycan-Ermənistan şərti dövlət sərhədinin Zəngilan rayonu ərazisindən keçən hissəsində Ermənistan Silahlı Qüvvələrinin Qafan rayonunun Nerkin-And yaşayış məntəqəsi istiqamətində yerləşən mövqeyindən Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının Zəngilan rayonunun Kolluqışlaq kəndi ərazisində yerləşən mövqeyinə atəş açılıb. Təxribat nəticəsində Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçusu əsgər Xəlilzadə Pərviz Ağakişi oğlu yaralanıb.

***Ağarza Elçinoğlu***

# Venesuela prezidentinə sui-qəsd təşkil etmək istəyən 19 nəfər saxlanıldı

***Venesuelanın baş prokuroru Tarek Uilyam Saab prezident Nikolas Maduroya qarşı sui-qəsddə iştirakda şübhəli bilinən 19 nəfərin saxlanıldığını açıqlayıb.***

"Unikal" xəbər verir ki, o, bu barədə mətbuat konfransında danışıb. Onun sözlərinə görə, 19 nəfərlə bağlı məhkəmə prosesi davam edir, 15 nəfər haqqında həbs qərarı çıxarılıb.

"Brazelete Blanco" (Ağ qolbaq) əməliyyatı çərçivəsində prezident Maduroya və yüksək vəzifəli şəxslərə qarşı sui-qəsd cəhdinin olduğunu vurğulayan Saab, ölkənin aparıcı hüquq müdafiəçisi Rocio San Miguel və 4 ailə üzvünün nəzarətə alındığını qeyd edib.

***Gülayə Mecid***



# "Cənubi Qafqazın gələcəyini region ölkələri həll etməlidir" - Rusiya XİN

***"Sərhəddə baş vermiş insidentlə bağlı bir daha demək istəyirəm ki, biz hər iki tərəfi qarşılıqlı təmkinli olmağa çağırırıq".***

"Unikal" xəbər verir ki, bunu Rusiya xarici işlər nazirinin müavini Mixail Qaluzin "İzvestiya" qəzetinə müsahibəsində deyib.

Diplomatın sözlərinə görə, Rusiya tərəfi heç bir insident baş verməsini, xüsusilə də atışma, insan tələfatı və yaralanmaların olmasını istəmir: "Təbii ki, belə hadisələr Ermənistan-Azərbaycan nizamlanmasının irəliləməsi üçün müsbət atmosferin yaradılmasına kömək edə bilməz".

Ermənistanın KTMT-dən çıxması məsələsinə toxunan rusiyalı diplomat qeyd edib ki, təşkilata üzvlük ilk növbədə Ermənistanın maraqlarına cavab verir: "Vaxtilə



Ermənistana hərbi-texniki xarakterli tədbirlər, profilli kadrların hazırlanması ilə bağlı tədbirlər, Ermənistanla Azərbaycan arasında sərhədyanı rayonlara KTMT-nin monitorinq missiyasının göndərilməsi təklif edilmişdi. Amma təəssüflər olsun ki, həmin ideya və təkliflər bəyənilmədi və həyata keçirilmədi".

Qaluzin həmçinin bildirib ki, Cənubi Qafqazın gələcəyini ABŞ, Fransa və ya Avropa İttifaqı deyil, region ölkələri həll etməlidir. O, Ermənistanı Qərb qüvvələrini regiona cəlb etmək meylində ittiham edib: "Qərbin Zaqafqaziyada maraqları Azərbaycanla münasibətlərin tənzimlənməsində, sülh və sabitliyin əldə olunmasında Ermənistana kömək etməklə deyil, Rusiyanı o prosesdən sıxışdırıb çıxarmaq və onun sərhədlərinin bilavasitə yaxınlığında növbəti gərginlik mənbəyi yaratmaqla bağlıdır. Bununla belə, biz gözləyirik ki, İrəvan KTMT ilə bağlı şübhələrini nə qədər tez aradan qaldırsa və həmin təşkilatın gündəliyində duran məsələlər üzrə siyasi və ekspertlər səviyyəsində konstruktiv, effektiv və mənalı müzakirələrə qayıtsa, bir o qədər yaxşıdır".

***Ağarza Elçinoğlu***

06_27 IYUI-QARA.qxd 2/15/2024 10:34 PM Page 16



# Azərbaycanın yunan-Roma güləşi millisi Avropa çempionatında 2-ci oldu

***Yunan-Roma güləşi üzrə Azərbaycan millisi Rumıniyanın paytaxtı Buxarestdə keçirilən Avropa çempionatında komanda hesabında ikinci yeri tutub.***



Güləşçilərimiz 3 qızıl, 2 gümüş, 1 bürünc medalla buna nail olublar.

Ümumilikdə 142 xal toplayan yığma Avropa çempionu olan Türkiyədən cəmi 5 xal geri qalıb. Azərbaycan millisi həm də tarixində ilk dəfə qitə birinciliyində 3 qızıl mükafat əldə edib.

Qeyd edək ki, Avropa çempionatında Azərbaycan yığmasının heyətində Nihat Məmmədli (60 kq), Murad Məmmədov (63 kq), Həsrət Cəfərov (67 kq) qızıl, Rəşad Məmmədov (55 kq), Ülvü Qənizadə (72 kq) gümüş, Beka Kandelaki (130 kq) isə bürünc medala sahib çıxıb.

# Enrike: "Cavab oyununu düşünmək istəmirəm"

***PSJ-nin baş məşqçisi Luis Enrike Çempionlar Liqasının 1/8 final mərhələsinin ilk oyununda "Real Sosyedad"a qalib gəldikləri matç (2:0) haqqında danışıb.***



QOL.az "RMC Sport"a istinadən xəbər verir ki, mütəxəssis rəqibin qələbəyə layiq olduğunu deyib:

"Bu komanda ilə oyunu səbirsizliklə gözləyirdik. "Real Sosyedad"ı təbrik edirik. Çünki bu, böyük komandadır! Əla döyüşdülər, mübarizə apardılar. Rəqiblərimiz bizə çox əziyyət verdilər. Onlar pressinq etdilər. "Real Sosyedad" hətta qola layiq idi.

Birinci hissə 0:0 hesabı ilə başa çatıb. Fasilədən sonra biz oyunumuzu gücləndirdik və daha yaxşı pressinq etdik. Hücumçularımız çox yaxşı oynadılar, amma cavab matçını düşünmək istəmirəm".

Qeyd edək ki, bu komandalar arasında cavab oyunu martın 5-də keçiriləcək.

# Tuhel: "Biz uduzduq, amma "Latsio"nun qalib gəldiyinə əmin deyiləm"

***"Bavariya"nın baş məşqçisi Tomas Tuhel Çempionlar Liqasının 1/8 final mərhələsinin ilk görüşündə "Latsio"ya (0:1) məğlub olmaqları haqda danışıb.***

QOL.az BBC-yə istinadən xəbər verir ki, mütəxəssis komandasının inamsız və zəif oynadığını etiraf edib: "Məğlubiyyətə görə məyus olduq və qəzəbləndik. Biz oyunda uduzduq, amma "Latsio"nun qalib gəldiyinə əmin deyiləm. İkinci hissədə sanki özünəinamı itirdik. Amma bunun səbəbini bilmirəm. Bunu izah edə bilmərəm. Çünki futbolçulara intensivliyi saxlamalı olduqlarını və irəlidə daha da cəsarətli olmaqlarının lazım gəldiyini söyləmişdik. Amma alınmadı.

İlk hissədə yaxşı qol vəziyyətləri yaratdıq, lakin sonda hədəfə bir dənə də olsun zərbə endirmədik. Belə bir oyunda qalib gəlməyin mümkün olmadığı aydındır. Bununla belə, qarşıda bizim cavab matçımız var".



Qeyd edək ki, bu komandalar arasında cavab oyunu martın 5-də keçiriləcək.

# ÇL-də həftənin ən yaxşı futbolçusu adına namizədlər

***UEFA Çempionlar Liqasında bu həftənin ən yaxşı futbolçusu adına namizədləri açıqlayıb.***

QOL.az xəbər verir ki, namizədlər sırasında Brahim DiaS ("Real" Madrid), Matteo Qenduzi ("Latsio"), Kilian Mbappe (PSJ) və Kevin De Brüyne ("Mançester Siti") yer alıb.

Qeyd edək ki, qalib qurumun saytında futbolsevərlər arasında keçirilən səsvermədə müəyyənləşəcək.

Xatırladaq ki, ÇL-in 1/8 finalının daha 4 matçı gələn həftə oynanılacaq.

# Ronaldonun qolu "Əl-Nəsr"ə qələbə qazandırdı

***Səudiyyə Ərəbistanının "Əl-Nəsr" klubu Asiya Çempionlar Liqasının 1/8 final mərhələsinin ilk oyununa çıxıb.***

QOL.az xəbər verir ki, komanda səfərdə ölkənin digər klubu "Əl-Faiha" ilə qarşılaşıb. Matç qonaqların 1:0 hesablı qələbəsi ilə başa çatıb. Yeganə qol 81-ci dəqiqədə Kriştiano Ronaldo vurub.

Komandalar arasında cavab oyunu fevralın 21-də Ər-Riyadda keçiriləcək.

# "Heç bir yarışa özümdənrazı getmirəm" - Avropa çempionumuz

***Rumıniyada keçirilən güləş üzrə Avropa çempionatında qızıl medal qazanan Azərbaycan idmançısı Həsrət Cəfərov açıqlama verib.***

"Unikal"ın məlumatına görə, klubun mətbuat xidmətinə danışan güləşçi ikinci dəfə qitə birincilinin qalibi olmasından söz açıb:




"Bunun arxasında böyük əziyyətlər dayanır. Çox yaxşı hazırlaşmışdıq və istəyimə çatdım, qızıl medal qazandım. Heç bir yarışa özümdənrazı getmirəm. Bu mənə yaraşmaz. Hər rəqibimi güclü sayıram, onları zəif hesab etmirəm".

# "Neftçi" Futbol Mərkəzinin inzibati binası təmirə bağlandı

***"Neftçi" klubunun Bakıxanov qəsəbəsində yerləşən Futbol Mərkəzində inzibati binanın əsaslı təmir-bərpa işləri başlanıb.***

"Unikal" xəbər verir ki, bu barədə Bakı klubu sosial şəbəkə vasitəsilə məlumat yayıb.

Bildirilib ki, binanın birinci mərtəbəsində fitnes, fizioterapiya, massaj, paltardəyişmə, videoanaliz üçün otaqlarda, eləcə də yeməkxana və hamam otağında tikinti işləri aparılır.

# "Bavariya" maaşları azaldır

***"Bavariya" rəhbərliyi klubun maaşlarını əhəmiyyətli dərəcədə azaltmaq üçün çox çalışacaq.***

Bu barədə "Kicker" nəşri məlumat yayıb. İlk növbədə Münhen təmsilçisi komandanın gənc futbolçuları Camal Musiala və Alfonso Deyvisin maaşlarına qənaət etməyi planlaşdırır . Klub rəhbərləri yeni müqaviləyə əsasən kanadalı müdafiəçiyə ildə 13 milyon avro ödəmək niyyətində deyil. Həmçinin Almaniya təmsilçisinin rəhbərliyi hesab edir ki, Musiala hələ stabil oyununu tapmayıb və buna görə də ciddi maaş artımına layiq deyil.

Bu mövsüm Musiala bütün yarışlarda 24 matçda 7 qol vurub və 3 qolun ötürməsini verib. Devis 27 oyunda 1 qol və 3 qol ötürməsi ilə yadda qalıb.



# "Yuventus" ona 75 milyon avro qiymət qoydu

***"Yuventus"un mərkəz müdafiəçisi Bremer yay transfer pəncərəsində klubu tərk edə bilər.***

QOL.az İtaliya mətbuatına istinadə xəbər verir ki Turin klubunun rəhbərliyi 26 yaşlı oyunçunu ən azı 75 milyon avroya ayrılmağa hazırdır.

Qeyd olunur ki, braziliyalı futbolçu üçün "Real", "Arsenal" və "Mançester Yunayted" mübarizə aparır.

Bremer 2022-ci ilin yayında 44 milyon avroya "Torino"dan "Yuventus"a keçib. Bu mövsüm müdafiəçi klubun heyətində bütün turnirlərdə 26 oyuna çıxıb və 2 qol vurub. Onun Turin klubu ilə müqaviləsi 2028-ci ilin iyunun sonuna kimi qüvvədədir.